Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 134 (8157) BAZAR, 23 iyun 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Sosial sahədə inqilabi addımların növbəti mərhələsi

### Yeni sosial paket İlham Əliyevin ölkə vətəndaşlarının güzəranının daha da yaxşılaşdırılmasına olan həssas diqqətinin növbəti təcəssümüdür

Prezident İlham Əliyevin hər bir sahədə inkişafa nail olmaq üçün keçirdiyi islahatlar uğurlu nəticələr verməklə Azərbaycanın dinamik yüksəlişinə səbəb olub. Bu siyasət 2019-cu ilin əvvəllərindən olduqca mühüm nailiyyətlərlə əlamətdardır və həyata keçirilən islahatlar yeni mərhələyə qədəm qoyub.

#### Artan vəsaitlər sosial sahəyə yönəldilir

Bu baxımdan artıq yarısı başa çatmaqda olan 2019-cu ilin iqtisadi mənzərəsi Azərbaycanın qarşısına qoyduğu hədəflərə doğru inamla irəliləyən bir ölkə olduğunu nümayiş etdirir. Bu dövrün iqtisadi statistikası İlham Əliyevin həyata keçirdiyi inkişaf kursunun praktikada özünü tam doğrultduğunu ortaya qoyur. Lakin cənab İlham Əliyev islahatların yalnız iqtisadi sfera ilə məhdudlaşmayaraq digər sahələrdə də həyata keçirilməsini məqsədəuyğun sayır. Çünki inkişaf yalnız bir istiqaməti əhatə etməli deyil, kompleks xarakter daşımalıdır. Məsələn, bu ilin əvvəllərindən struktur islahatlarına başlanılması, bir sıra dövlət orqanlarının ləğvi, bəzilərinin birləşdirilməsi və ya bazalarında yenilərinin yaradılması göstərir ki, islahatlar həm də dövlət idarəçiliyini əhatə edir.

İnsanın həyatını yaxşılaşdırmağa xidmət etməyən heç bir iqtisadi inkişaf öz məqsədinə, yüksək amallarına nail ola bilməz. Ona görə vətəndaşların sosial rifahının yaxşılaşdırılması, həyat tərzinin dəyişdirilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsas məqsədlərindən biridir. Bu baxımdan bu ilin əsas diqqətçəkən məqamları Azərbaycanda baş verən sosial hadisələrdir. Belə ki, bu hadisələrin hər biri öz inqilabi mahiyyəti ilə ölkənin sosial həyatında ciddi rezonans doğurdu. Reallıq ondan ibarətdir ki, Azərbaycanda son illərdə aparılan mükəmməl iqtisadi islahatlar, şəffaflaşdırma siyasəti büdcə gəlirlərinin artmasına, maliyyə imkanlarımızın əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olub. Və cənab Prezident ilk növbədə bu vəsaitləri məhz sosial sahəyə yönəldir.

Amma budəfəki artımlar çəkisinə görə daha sanballı və əhatə etdiyi əhali qrupları baxımından daha genişdir. Məsələn, bu ilin əvvəllərindən şəhid ailəsi üçün Azərbaycan Prezidentinin təqaüdünün aylıq məbləğinin 58 manat artırılaraq 300 manat müəyyən edilməsi, minimum əməkhaqqının məbləğinin 50 manat artırılaraq 180 manata çatdırılması, əmək pensiyalarının minimum məbləğinin 38 faiz artırılaraq 116 manatdan 160 manata çatdırılması, təqribən 100 minə yaxın tələbənin təqaüdünün artırılması, Əfqanıstan veteranlarının müavinətinin 220 manatdan 300 manata qaldırılması bu ilin yanvar-fevral aylarında Prezidentin verdiyi sosial qərarların ayrı-ayrı nümunələridir. Bundan başqa, sosial müavinətin məbləğinin yaşa görə müavinət alanlar üçün 73 manatdan 130 manata, I qrup əlilliyə görə 150 manata, II qrup əlilliyə görə 130 manata, III qrup əlilliyə görə 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 82 manatdan 150 manata, ailə başçısını itirməyə görə ailə üzvlərinin hər biri üçün 68 manatdan 80 manata çatdırılması təsdiqləyir ki, bu qərarlar bütün sosial qrupları əhatə edir.

Ardı 4-cü səh.

## Lüksemburqun Böyük Hersoqu əlahəzrət Anriyə

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Lüksemburq xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyun 2019-cu il*

## S.A.İsmayılova "Əməkdar dövlət qulluqçusu" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Süleyman Abbas oğlu İsmayılova "Əməkdar dövlət qulluqçusu" fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 22 iyun 2019-cu il

## Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məlumatı

Artıq bir neçə gündür ki, bəzi internet saytlarında və sosial şəbəkələrdə Müdafiə Sənayesi Nazirliyinin fəaliyyəti ilə bağlı yanlış və heç bir əsası olmayan məlumatlar yayılır. Bununla əlaqədar bildiririk ki, "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 yanvar tarixli 466 nömrəli Fərmanının 1-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin əsasında "Azərsilah" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Eyni zamanda, həmin Fərmanın 5-ci hissəsində müəyyən edilmişdir ki, cəmiyyət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi öz fəaliyyətini davam etdirir. Qeyd olunanları, yəni "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin indiyədək dövlət qeydiyyatına alınmadığını və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 yanvar tarixli 466 nömrəli Fərmanının ləğv edildiyini nəzərə alaraq, Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi ləğv olunmuş hesab edilmir və öz fəaliyyətini davam etdirir.

## Hərbi müttəfiqliyin zəfər təntənəsi

### Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə təlimləri hərbi əməkdaşlığın daha bir uğurlu nəticəsi oldu



Eyni tarixi köklərə, ortaq milli, dini və mənəvi dəyərlərə malik Azərbaycan və Türkiyə tarixi bağlılığında Naxçıvanın öz yeri var. Bu, Naxçıvanın strateji-coğrafi mövqeyində, həm də Türkiyə ilə qardaşlıq münasibətlərində özünü ehtiva edir.

*Bu, türk-islam dünyasının elmi və ictimai fikrinin inkişafına böyük töhfələr vermiş görkəmli mütəfəkkir Nemətullah Naxçıvani, Türkiyə türkcəsinin və Azərbaycan türkcəsinin ortaq böyük şairi, ömrünün sonunadək türkçülük, turançılıq ideologiyasına sadiq qalan böyük Cavid əfəndi, türk rəssamlıq sənətini Avropada tanıdan İbrahim Səfi irsi kimi çoxcəhətli zəngin mənəvi bağlarda öz əksini tapmaqdadır.*

Onu da qeyd edək ki, "sıxarsaq, hər qarışı şühəda fışqıracaq bu torpaqların" yurddaşlarını milli varlığını və ərazi bütövlüyünü qorumaq uğrunda eyni rəzil düşmənə qarşı mübarizə tarixi də birləşdirir. Bu gün müasir türk şifahi və yazılı ədəbiyyatının ana mövzularından olan 1915-ci il Çanaqqala zəfəri, həmin döyüşlərdə üç mindən artıq azərbaycanlının da şəhadətə yetişməsi, çağdaş Naxçıvan folklorunda əfsanələşərək, bayatılaşaraq yaşayan Şərq ordu komandanlığının 1919-cu ildə Naxçıvanda erməni təcavüzkarlarına qarşı mübarizədə yerli özünümüdafiə qüvvələri ilə çiyin-çiyinə şücaətlə vuruşması, xüsusilə Kazım Qarabəkir paşanın Naxçıvanın müdafiəsində hərbi və siyasi xidmətləri tariximizə birgə yazdırılan şanlı zəfər səhifələridir.

Türk dünyasının iki böyük lideri - Mustafa Kamal Atatürk və ulu öndər Heydər Əliyevin xalqların birlik və həmrəyliyi naminə tarixi xidmətləri sayəsində türkçülük ideyasının əsas konsepsiyaları formalaşmış, ortaq tarixi-mənəvi dəyərlərimiz, siyasi-milli məramlarımız birləşərək bir millətin iki dövləti səviyyəsinə yüksəlmişdir.

Müstəqil Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası iki ölkə arasındakı əlaqələrin müasir müstəvidə inkişafında mühüm rol oynayır. Muxtar respublika ilə qardaş ölkə arasındakı hərbi əməkdaşlıq isə bu əlaqələr arasında ön sırada durur. 1997-ci ildən bu günə qədər Naxçıvan Muxtar Respublikasında 600-ə yaxın Türkiyə hərbçisi xidmət keçib. Eyni zamanda Heydər Əliyev adına Hərbi Liseyi bitirən 80-ə yaxın kursant Türkiyənin ali hərbi məktəblərində təhsilini davam etdirib.

Ardı 4-cü səh.

## Sahibkar bağban ixracata üstünlük verir

Şəmil Cahangirov heç təsəvvürünə də gətirməzdi ki, qısa vaxtda nəinki Göygöl rayonunda, eləcə də ölkədə sayılıb-seçilən iş adamlarından olacaq. İndi işgüzar təsərrüfat rəhbərlərindən söhbət düşəndə Göygöl rayonunda onun adını birincilər sırasında çəkirlər.

Biz təsərrüfata onunla vədələşdiyimiz vaxtdan bir qədər tez gəldik. Vaxtdan istifadə edib bağları gəzdik. Sıralanmış üzüm və şaftalı ağaclarına baxdıqca adamın ürəyi dağa dönürdü. Çox çəkmədi ki, Şəmsi gəldi. Salamlaşdıqdan sonra dedi ki, rəhbərlik etdiyi təsərrüfatın ərazisi çox genişdir. Əsasən Göygöl rayonunda fəaliyyət göstərsələr də, əkin sahələrinin müəyyən hissəsi Samuxda, müəyyən hissəsi Goranboy rayonu ərazisindədir.

Öyrəndik ki, təsərrüfat 10 ildir yaradılıb və bu müddətdə çox iş görülüb. Cəmi 21 hektar sahədə təsərrüfat yaradan iş adamı sonralar fəaliyyətini genişləndirərək əkin sahələrini 80 hektaradək artırıb. 2013-cü ildə Göygöl rayonu ərazisində 40 hektar torpaq sahəsi alıb 14 hektarında İran İslam Respublikasından gətirdiyi kişmiş tingləri əkib. Bağın suvarılması üçün subartezian quyusu qazdıraraq istifadəyə verib. Bağlar damcı suvarma üsulu ilə suvarıldığından su itkisinə yol verilmir. Hər il həmin bağlardan bol məhsul götürülür.

Üzümün qazanclı olduğunu görən sahibkar digər meyvə bağları da salmağı qərara aldı. Bu məqsədlə 2014-cü ildə İspaniyadan 18 min şaftalı tingi gətirərək 25 hektarda yeni bağ saldı. Bağın suvarılması üçün subartezian quyusu qazdırdı. Bu sahədə təcrübəli mütəxəssisləri ətrafına toplayan Şəmil Cahangirov 4 ildən sonra bağlardan 400 ton meyvə topladı. Onun 150 tonunu daxili bazarlarda satdı, 250 tonunu Rusiya və Ukraynaya ixrac etdi.

Söhbət zamanı məlum oldu ki, iş adamı iqtisadi cəhətdən daha səmərəli olan meyvə bağlarının sahəsini genişləndirmək üçün əvvəllər xurma əkilmiş 2,1 hektarda gilas bağları salmış və meyvəqurutma müəssisəsi yaratmışdır. Müəssisədə Çindən gətirilmiş müasir avadanlıqlar quraşdırılmışdır. Hazırda müəssisənin yaxınlığında 1250 tonluq soyuducu anbar tikilir. Bu imkan verəcək ki, meyvəqurutma müəssisəsi fəaliyyətini il boyu davam etdirsin.

Ardı 3-cü səh.



## Xəzərin perspektiv strukturları: "Dayazsulu Abşeron"

2014-cü il dekabrın 22-də SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və BP arasında Abşeron yarımadasının ətrafındakı dayazsulu sahədə yerləşən potensial perspektiv strukturlarda birgə geoloji-kəşfiyyat işlərinin aparılması və Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) imzalanmışdır.

Bu, Azərbaycanın neft-qaz sənayesi qarşısında duran əsas vəzifələrdən biri - Xəzərin ölkəmizə məxsus sektorundakı bütün dəniz ərazilərinin tam tədqiq olunması istiqamətində atılan mühüm addımdır.

"Dayazsulu Abşeron" üzrə sazişini imzalamaqda məqsəd həm Azərbaycanın, həm də BP şirkətinin qarşılıqlı faydalanmaları üçün ölkəmizin karbohidrogen ehtiyatlarının tam işlənməsini təmin etməkdir. Saziş imzalanandan bir neçə ay sonra Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilmişdir. Sazişə əsasən, müqavilədə "BP Eksploreyşn (Kaspian Si) Ltd" şirkətinin və SOCAR-ın hərəsinin 50 faizlik iştirak payı var. Bu sənəd 30 illik müddəti əhatə edir.

"Dayazsulu Abşeron"un müqavilə sahəsi Xəzər hövzəsinin hüdudları boyunca Abşeron yarımadasının cənubuna doğru uzanır. Həmin ərazidə suyun dərinliyi 40 metrədək dəyişir və potensial məhsuldar layın (kollektorun) dərinliyi 3000-5000 metr təşkil edir.

Dövlət Neft Şirkətində hesab edirlər ki, "Dayazsulu Abşeron"un işlənməsi ilə SOCAR və BP arasında əməkdaşlığın yeni mərhələsi başlanmışdır. Bu mərhələ yeni ehtiyat mənbələri aramaqla Azərbaycanda neft və qaz hasilatının uzunmüddətli gələcəyini təmin etmək üçün birgə işləməyə imkan yaradacaq. Bu da ölkəmizdə neft hasilatının daha onillərlə davam etməsinə töhfə verəcək.

BP də həmçinin "Dayazsulu Abşeron"u SOCAR-la tərəfdaşlığında yeni bir dövrün başlanğıcı adlandırır.

Dörd il əvvəl HPBS Milli Məclis tərəfindən ratifikasiya olunandan dərhal sonra müqavilə sahəsində üçölçülü seysmik tədqiqat proqramının həyata keçirilməsi üçün hazırlıq işlərinə başlanmışdır. 2015-ci ilin dekabr ayında ikiölçülü seysmik tədqiqat proqramı təhlükəsiz şəkildə sona çatdırılmışdır. Üçölçülü seysmik tədqiqat proqramı üzrə Ətraf Mühit və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi sənədinin ictimai müzakirələri aparılmışdır.

Ardı 3-cü səh.

# Prezident İlham ƏLİYEV: "Azərbaycan özünün tarixi ilə qürur duyur"




Azərbaycan özünün tarixi ilə qürur duyur. Müxtəlif dinlərin nümayəndələri ölkəmizdə əsrlərboyu sülh və ləyaqət şəraitində yaşayıblar. Bu gün bizim tarixi abidələrimiz həmin mədəni müxtəlifliyi özündə əks etdirir. Bizim gücümüz mədəni müxtəlifliyimizdədir. Multikulturalizmin alternativi yoxdur.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 86-cı kitabında yer alan bu fikirlər dövlət başçısının 2018-ci il aprelin 5-də "Qoşulmama hərəkatı"nın Bakıda keçirilmiş nazirlər konfransının açılış mərasimindəki nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2018-ci ilin mart-may aylarını əhatə edir.

Kitabda Prezident İlham Əliyevin Ankarada Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclasında çıxışının mətni, qardaş ölkəyə rəsmi səfəri çərçivəsində sənədlərin imzalanma mərasimi haqqında məlumat, Azərbaycan və Türkiyə prezidentlərinin mətbuata bəyanatlarla çıxışlarının mətnləri yer alıb.

Nəşrə dövlət başçısının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfərinə, habelə Azərbaycana səfər etmiş İran İslam Respublikası Prezidenti ilə görüşünə dair informasiyalar, Azərbaycan-İran biznes-forumunda söylədiyi nitqin mətni daxil edilib.

Çoxcildliyin 86-cı kitabında Prezident İlham Əliyevin Belarus, Türkiyə, İordaniya, Birləşmiş Ərəb Əmirlikləri, Hindistan, Rusiya və digər dövlətlərin, NATO-nun, ATƏT-in, Şanxay Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Memarlar İttifaqının, Dünya Turizm Təşkilatının Azərbaycana səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair məlumatlar toplanıb.

Kitabda, həmçinin 2018-ci ilin aprelində keçirilmiş Azərbaycan Respublikasının Prezidenti seçkilərinin yekunları, növbəti müddətə Prezident seçilmiş İlham Əliyevin andiçmə mərasimi barədə materiallar verilib.

Oxucu bu nəşrdə ölkə rəhbərinin Bərdə rayonunda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində nitqinin mətni, Xaçmaz və Xızı rayonlarına səfərləri haqqında informasiyalarla da tanış ola bilər.

Prezident İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinə müsahibəsinin mətni, Azərbaycanın Pravoslav xristian icmasına Pasxa bayramı münasibətilə təbriki, "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusunda beşinci beynəlxalq elmi konfransın iştirakçılarına məktubu və digər məktubları da çoxcildliyin 86-cı kitabına daxil edilib.

Bu kitabda Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə dövlət başçısının söylədiyi nitqlərin mətnləri yer alıb.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 86-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Dövlət qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Dadaşov Mehdi Tələt oğlu
Əzizov Fikrət Nəhməd oğlu
Rzayev Eldar Həmid oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov Bəhram Yaqub oğlu
Abbasova Cəmilə Mir-Sadıq qızı
Allahverdiyev İlqar Əmir oğlu
Babayev Nazim Bəndəli oğlu
Bağırova Fərzanə İsa qızı
Bayramov Elbrus Yaqub oğlu
Bədəlov Yadigar Aley oğlu
Bəşirov Azər Ağababa oğlu
Cabbarov Azər Əliş oğlu
Cəfərov Rasim Balaxan oğlu
Əliyev Arif Qulu oğlu
Əliyev Ramiz Əli oğlu
Əsədov Hidayət Bəylər oğlu
Əsgərov Ruslan Yusif oğlu
Əzimov Yaşar Şahab oğlu
Həsənov Asəf Rəhim oğlu
Həsənov Müjdat Muxtar oğlu
Hüseynova Fidumə Məmmədəli qızı
Xəlilov Fəzail Xəlil oğlu
İbrahimov Vüqar Emin oğlu
Kərimova Elnarə İslam qızı
Qaraşov Qənimət Səfər oğlu
Qarayev Arzu Cəmil oğlu
Qarayev Vahid Yaqub oğlu
Qasımov Niftalı Xansuvar oğlu
Qubadov Miriş Həsənağa oğlu
Mehtiyev Faiq Mehti oğlu
Məmmədov Fəxrəddin Rza oğlu
Mirzəyev Nurəddin İbrahim oğlu
Muradov Kərəm Bəhmən oğlu
Mustafayev Hikmət Mövlud oğlu
Mustafayeva Zenfira Mustafa qızı
Novruzov Ağaverdi Yunus oğlu
Paşayev Nağı Paşa oğlu
Salmanov İkram İsbi oğlu
Süleymanov Mais Absət oğlu
Şikarov Aftandil Heybət oğlu
Şirinov Mustafa Surxay oğlu
Tağıyev Ramin Əliş oğlu
Zeynalova Ayziynət Səyavuş qızı

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abbasov Cavid Camal oğlu
Abbasov Qalib Nizami oğlu
Abbasov Natiq Vahib oğlu
Abbasova Narıngül Qüdrət qızı
Abbasova Vəfa Rəşid qızı
Abdullayev Azər Hüseyn oğlu
Abdullayev Namiq İskəndər oğlu
Abdullayev Rüstəm Mirəli oğlu
Abdullayev Səid Oqtay oğlu
Abdullayeva Sevda İsmixan qızı
Abdullayeva Tusiyə Əlikram qızı
Abtalıbov Rəhim Talıb oğlu
Ağadadaşov Bəydadaş Baladadaş oğlu
Ağamirzəyev Tofiq Məhəmmədəli oğlu
Ağayev İlkin Müzəffər oğlu
Ağayeva Aynurə Ərəstun qızı
Ağdamskaya Rumiyyə Telman qızı
Axundov Elşən Marsel oğlu
Axund-zadə İdris Sabutay oğlu
Allahverdiyev Ziyəddin Qulu oğlu
Aslanov İbrahim Qoçəli oğlu
Aslanova Fəridə Aftandil qızı
Atakişiyev Teymur Yusif oğlu
Babayev Abbasağa Adil oğlu
Babayev Elturan Ağasəfər oğlu
Baxışov Vüqar Məmməd oğlu
Balıyeva Əsmiray Yasin qızı
Barxudarov Barxudar İsmayıl oğlu
Bayramov Azər Əziz oğlu
Bayramov Həbib Muxtar oğlu
Behbudov Vüqar Şəfa oğlu
Cabbarov Telman İmran oğlu
Cəbrayılova Aygün Yasəf qızı
Cəfərov Altay Nizami oğlu
Cəfərova Rəna Qulam Hüseyn qızı
Cırıyev Namiq Zeynəddin oğlu
Əhmədov Ənvər İsa oğlu
Əhmədov Ənvər Ramazan oğlu
Əhmədova Fəridə Ağa Hüseyn qızı
Əkbərova Aybəniz Əbdül qızı
Əkbərova Qəribə Rəhim qızı
Ələkbərova Vəfa Ədalət qızı
Ələsgərov Muxtar İslam oğlu
Əliyev Azər Rövşən oğlu
Əliyev Bəxtiyar Gülməmməd oğlu
Əliyev Ərəstun Soltan oğlu
Əliyev Firdovsi Şahmirzə oğlu
Əliyev Gündüz Aydın oğlu
Əliyev Sahib Hümmət oğlu
Əliyev Vüqar Sabir oğlu
Əliyeva Arzu Qabil qızı
Əliyeva Aynur Zakir qızı
Əliyeva Fərqanə Kamil qızı
Əliyeva Gülnarə Əliheydər qızı
Əliyeva Sevinc Cabbar qızı
Əlizadə Hikmət Samət oğlu
Əsədov Əbülfəz Əhməd oğlu
Əsgərov Vüqar Niyaz oğlu
Əzizov Elxan Nizami oğlu
Əzizov Neman Əziz oğlu
Fəti-zadə İlqar Fəti oğlu
Gülməmmədov Rüfət Həsən oğlu
Hacıyev Arzu Həsən oğlu
Hacıyev Rauf Vahid oğlu
Hacıyev Vüqar Feyzulla oğlu
Heybətov Xanlar Nizam oğlu
Heydərov Fuad Fikrət oğlu
Heydərova Leyla Tofiq qızı
Həbibullayev Elgin Şirin oğlu
Həmidova Əfşan Oqtay qızı
Həmzəyeva Zərifə Əhməd qızı
Həsənov Həşim Əfsələddin oğlu
Həsənov Hüseynağa İbrahim oğlu
Həsənov Mehdi Səfər oğlu
Həsənov Nurlan Həsən oğlu
Həsənov Oqtay Bəndalı oğlu
Həsənov Vaqif Həsən oğlu
Həsənova Firəngiz Yadulla qızı
Həsənova Gulaya Ziyad qızı
Həziyev Məmməd Bahadur oğlu
Hümbətov Surxay Vəli oğlu
Hüseynli Ülvi Mötəbər oğlu
Hüseynov Elçin Sabir oğlu
Hüseynov Elmar Ramiz oğlu
Hüseynov İsa Nəbi oğlu
Hüseynov Mədələt Ağadəmir oğlu
Hüseynov Rafiq Həsən oğlu
Hüseynov Vaqif Qalası oğlu
Hüseynov Vəfadar Hüseyn oğlu
Hüseynova Şərafət Niyazi qızı
Xankişiyev Şahin Təvəkkül oğlu
Xəlilov Ədalət Hidayət oğlu
Xəlilov Qulu Oqtay oğlu
Xəlilova Vəsilə Əhməd qızı
Xudiyeva Fidan Hüseynağa qızı
İbrahimov Əflatun Əjdər oğlu
İbrahimov İbrahim Adil oğlu
İbrahimova Gülarə Dadaş qızı
İbrahimova Mahirə Ədalət qızı
İsayeva Ataş Sokrat qızı
İsayeva Əminə Ədalət qızı
İsgəndərov Taryel Eyyub oğlu
İsgəndərova Lalə Qazımurad qızı
İsmayılov Elşən Vəli oğlu
Kərimov Elşad Mürvət oğlu
Kərimov Etiqad Fərrux oğlu
Kərimov İsmayıl Hikmət oğlu
Kərimov Zahir Zahid oğlu
Kərimova Şəhla Baxış qızı
Qafarova Gülnarə Zakir qızı
Qaraxanova Nərgiz Nəvai qızı
Qarakişiyev Qara İsmayıl oğlu
Qasımov Ziya Əlfüqar oğlu
Qasımova Xəyalə Nurəddin qızı
Qazı Zadə Cavanşir Mahmud oğlu
Qənbərov Mirsalam Böyükağa oğlu
Qəribli İsmayıl Cavanşir oğlu
Qocayev Sabir Nazir oğlu
Quliyev Elbrus Fərrux oğlu
Quliyev Mirzə Fərzulla oğlu
Quliyev Rövşən Allahverdi oğlu
Quliyev Şakir Nəcəf oğlu
Quliyeva İlahə Böyükişi qızı
Quliyeva Səbinə Rafiq qızı
Qurbanova Nərgiz Qaraş qızı
Lazımov Eynulla Məmməd oğlu
Mahmudov Elşad Mamay oğlu
Mehdiyev Mübariz Cəbrayıl oğlu
Mehdiyev Nadir Ədib oğlu
Məhərrəmov Adəm İmanverdi oğlu
Məhərrəmov Elxan İmran oğlu
Məhərrəmov Mətləb Möhübbət oğlu
Məmmədli Xumar Mahal qızı
Məmmədli Seymur Sehvəddin oğlu
Məmmədov Araz İslam oğlu
Məmmədov Elçin Vaqif oğlu
Məmmədov Elnur Məmməd oğlu
Məmmədov Elşad Abasqulu oğlu
Məmmədov Əsgərxan Kamil oğlu
Məmmədov Gündüz Müküş oğlu
Məmmədov Həsən Nurəddin oğlu
Məmmədov İlqar Nizami oğlu
Məmmədov Nicad Yaşar oğlu
Məmmədov Rəhman Yaqub oğlu
Məmmədov Sadiq Yusif oğlu
Məmmədov Sədi Sədrəddin oğlu
Məmmədov Süleyman Məmmədiyə oğlu
Məmmədov Vüqar Simurq oğlu
Məmmədova Həcər Əli qızı
Məmmədova Sevinc Rafiq qızı
Məmmədova Səxavət Orxan qızı
Məmmədova Səkinə Oruc qızı
Məmmədova Şölə İsa qızı
Mirzəyev Zəka Aqil oğlu
Mirzəyeva Dürdanə Gulaməddin qızı
Mirzəyeva Sevda Əziz qızı
Muxtarov Qabil Məhəmməd oğlu
Muradov Etibar Rafiq oğlu
Murtuzova Ayan Zəfər qızı
Musayev Zülfəli Mustafa oğlu
Mustafayev Arzu İbrahim oğlu
Mustafayev Eldar Müzəffər oğlu
Mustafayev Fuad Rauf oğlu
Mustafayev Natiq Məhyəddin oğlu
Mustafayeva Tamilla Qurbanəli qızı
Nadirova Səbinə Çingiz qızı
Nəcəfov Ceyhun Qəzənfər oğlu
Nəsirov Akif Təvəkkül oğlu
Nəsirova İradə Nəsir qızı
Orucov Əli Məhəbbət oğlu
Orucov Mirqubat Oruc oğlu
Orucov Mürvət Atakişi oğlu
Paşayev Cəlal İsa oğlu
Poladova Səadət İlfat qızı
Rəhimli Rəhim Nizami oğlu
Rəhimov Elçin Cəlal oğlu
Rəhimov Nicat Qüdrət oğlu
Rəhimova Lalə Hüseyn qızı
Rəsulov Ramiz Məhərrəm oğlu
Rüstəmli Ruslan Rüstəm oğlu
Rüstəmova Səidə Nurəddin qızı
Rzayev Elnur Şahbaz oğlu
Rzayev Səxavət Hüseynalı oğlu
Rzayeva Fərəh Ramiz qızı
Rzayeva Tahirə Xanlar qızı
Sadıx-zadə Rəna Mahmud qızı
Sadıqov Nəsir İbrahim oğlu
Sadıqov Sarvan Məcid oğlu
Sadıqova Səbinə Vaqif qızı
Salmanov Seymur Teymur oğlu
Sarıcalinskaya Kamalə Tofiq qızı
Saruxanov Şahabbas Polad oğlu
Seyidov Məcid Mirəli oğlu
Seyidzadə Ülvi Fuad oğlu
Səfərov Nazim Səmid oğlu
Səmədzadə Əjdər Elman oğlu
Süleymanov Əzim Bəhman oğlu
Şahverdiyev Vahid Hüseynqulu oğlu
Şərəfxanov Seymur Mətləb oğlu
Şirinov Fikrət Həsənqulu oğlu
Tağıyev Anar Aqil oğlu
Tağıyev Teymur Aqil oğlu
Tağıyeva Təranə İskəndər qızı
Tahirov David Zakir oğlu
Talışinskaya Səbinə Əlizakir qızı
Usubova Fidan Cəbrayıl qızı
Usubova İradə Cəfər qızı
Verdiyev İbadət Əliş oğlu
Verdiyeva Sevda Aslan qızı
Yusifi Günel Nüsrət qızı
Zeynalova Dilbər Qulaməli qızı
Zeynalova Südabə Mehdi qızı
Zeynalova Zivər Oktay qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2019-cu il*

# Minskdə II Avropa Oyunlarının rəsmi açılış mərasimi olub










İyunun 21-də Belarusun paytaxtı Minskdə II Avropa Oyunlarının açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, "Dinamo Arena"da keçirilən açılış mərasimini bir sıra ölkələrin dövlət və hökumət başçıları, o cümlədən Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov, Baş nazirin birinci müavini Yaqub Eyyubov, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə izləyiblər.

Gerisayım başa çatdıqdan sonra mərasim atəşfəşanlıqla açıq elan edilib. Orkestrin ifasında Belarusun dövlət himni səsləndirilib, bayrağı ucaldılıb. Sonra II Avropa Oyunlarında iştirak edən komandaların paradı başlayıb. Əvvəlcə olimpiya oyunlarını dünyaya bəxş etmiş ölkənin - Yunanıstanın idmançıları arenaya daxil olublar. Onların arxasınca digər ölkələrin komandaları latın əlifbasındakı ardıcıllıqla meydana çıxıblar.

Azərbaycan millisi paradda altıncı sırada arenaya daxil olub. Komandamızın bayraqdarı cüdoçu Rüstəm Orucov olub. Onu yığmamızın şef-de-missionu Anar Bağırov, idmançılar və rəsmi şəxslər müşayiət ediblər.

Sonra açılış mərasiminin bədii hissəsi başlayıb. Belarusun tarixi şəxsiyyətləri və tarixini əks etdirən kompozisiyalar izləyicilərin marağına səbəb olub. Bu ölkənin müxtəlif dövrlərdə yaşamış tarixi şəxsiyyətlərinin tanıtım videoçarxı yayımlanıb.

Mərasimdə BMT-nin Baş katibi Antonio Quterreşin videotəbriki səsləndirildikdən sonra olimpiya çempionlarının iştirakı ilə Avropa Olimpiya Komitəsinin (AOK) bayrağı gətirilərək "Dinamo Arena"da qaldırılıb.

AOK-un prezidenti Yanes Kosyançiç çıxış edərək bildirib ki, bu irimiqyaslı idman yarışında 50 ölkənin atletləri iştirak edirlər. İlk Avropa Oyunlarının Azərbaycanda yüksək səviyyədə təşkil edildiyini xatırladan Y.Kosyançiç idmançılara uğurlar arzulayıb.

Konsert zamanı tanınmış musiqiçilər - Rusiyanın xalq artisti Anna Netrebkonun (soprano) və Azərbaycanın xalq artisti Yusif Eyvazovun (tenor) ifaları böyük maraqla qarşılanıb.

Daha sonra Belarus Prezidenti Aleksandr Lukaşenko çıxış edərək bu gün bütün avropalıların idman bayramı olduğunu söyləyib. Dövlət başçısı bildirib ki, tolerantlıq, qarşılıqlı hörmət şəraitində yaşamaq Belarusun obrazına çevrilib. Möhtəşəm idman bayramının baş tutmasında zəhməti olan hər kəsə təşəkkürünü bildirən Belarus Prezidenti II Avropa Oyunlarında iştirak edən atletlərə uğurlar arzulayıb.

Sonra Prezident Aleksandr Lukaşenko II Avropa Oyunlarını açıq elan edib. Açılış mərasiminin sonunda Olimpiya məşəli yandırılıb və atəşfəşanlıq olub.

Qeyd edək ki, iyunun 30-dək davam edəcək II Avropa Oyunlarında Avropanın 50 ölkəsindən 4 mindən çox idmançı mübarizəyə qoşulub. Atletlər idmanın 15 növü üzrə 200 dəst medal uğrunda mübarizə aparacaqlar. Azərbaycan "Minsk 2019"da 82 idmançı ilə təmsil olunur. Atletlərimiz idmanın 11 növü üzrə medallar uğrunda yarışacaqlar. II Avropa Oyunlarına 3 min könüllü cəlb olunub.

Xatırladaq ki, tarixdə ilk Avropa Oyunları 2015-ci il iyunun 12-28-də Bakıda keçirilib. Azərbaycan bu mötəbər idman yarışının təşkili üçün qalan 30 aylıq qısa müddətdə hazırlıq prosesini yüksək səviyyədə başa vuraraq Avropa Oyunlarının standartlarını müəyyənləşdirib. "Bakı-2015"də uğurla çıxış edən Azərbaycan millisi komanda hesabında ikinci yerdə qərarlaşıb. İdmançılarımız Oyunlarda 56, o cümlədən 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanıblar.

İlk Avropa Oyunlarında birinci yeri isə aktivində 164 medal (79-40-45) olan Rusiya millisi tutub. II Avropa Oyunlarına evsahibliyi edən Belarus millisi isə "Bakı-2015"də 43 medalla (10-11-22) yeddinci olub.

# II Avropa Oyunlarında iştirak edən Azərbaycan idmançıları ilə görüş keçirilib







İyunun 22-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov, Baş nazirin birinci müavini Yaqub Eyyubov, Heydər Əliyev Fondunun vitse-prezident Leyla Əliyeva, gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev və nümayəndə heyətinin digər üzvləri "Minsk 2019" II Avropa Oyunlarında iştirak edən milli komandamızın üzvləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Atletlər Kəndində keçirilən görüşdə nümayəndə heyətinin üzvləri idmançılarla söhbət edib, onlara II Avropa Oyunlarında uğurlar arzulayıblar.

Sonra Atletlər Kəndində yaradılan vəziyyətlə tanışlıq olub.

Atletlər Kəndinin meri, Belarus təhsil nazirinin müavini Sergey Rudıy idmançıların yerləşdirilməsi, yaradılmış şərait barədə məlumat verib. O, Oyunların təşkilində azərbaycanlı mütəxəssislərin də xidmətindən istifadə olunduğunu vurğulayıb.

II Avropa Oyunlarının işıqlandırılması üçün Belarus paytaxtına ezam olunan Azərbaycan jurnalistlərinə müsahibə verən Leyla Əliyeva idmançılarımızın "Minsk 2019"da uğur qazanacaqlarına ümid etdiyini bildirib. II Avropa Oyunlarının möhtəşəm açılış mərasimi ilə bağlı təəssüratlarını bölüşən Leyla Əliyeva deyib: "Açılış mərasimi əla keçdi. Mərasim təqribən üç saat davam etdi, lakin elə təəssürat yarandı ki, bu, sanki bir anda baş verdi. Belarusun bütün tarixini o qədər böyük sevgi ilə, elə gözəl təqdim etdilər ki, bu tamaşadan göz çəkmək mümkün deyildi. Əlbəttə, düşünürəm ki, bunları görəndən sonra hamı bu ölkəyə daha çox vuruldu".

Sonda xatirə şəkli çəkdirilib.

## 23 iyun dövlət qulluqçularının peşə bayramı günüdür

Son zamanlar sosial-iqtisadi proseslərin dinamikliyi sayəsində innovasiyalar ictimai həyatın bütün sahələrinə nüfuz etməkdədir. İnnovativ fəaliyyət mədəni-sosial mühiti yeniləməklə fərdlərdə və sosial qruplarda innovativ davranış formalaşdırır, eyni zamanda, sosial münasibətlərin xarakteri və dinamikasını dəyişir. Bu baxımdan dövlət idarəçiliyində yenilik axtarışları zamanın tələbidir və istər ölkəmizdə, istərsə də dünyada prioritet məsələlərdəndir.

# Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi

Ölkəmizdə dövlət idarəçiliyi sahəsində innovasiyaların tətbiqi məsələsinin aktuallığı ilk növbədə dövlətin inkişaf strategiyası ilə bağlıdır. Burada başlıca məqsəd bir tərəfdən daxili və xarici problemləri həll edə biləcək güclü dövlətin yaradılması, digər tərəfdən hüquqi, demokratik, sosialyönümlü və xalqa tabe olan dövlət qurumunun formalaşdırılmasıdır. Aydındır ki, qarşıya qoyulan məqsədin həlli bir çox hallarda idarəetmənin keyfiyyətindən, idarə edənlərin peşəkarlıq səviyyəsindən asılıdır.

1991-ci ildə yenidən müstəqillik əldə etdikdən sonra demokratik, hüquqi, dünyəvi və unitar dövlət olaraq formalaşan Azərbaycan Respublikasında yeni Konstitusiyanın qəbulu ilə dövlət idarəçilik sistemində köklü dəyişikliklərə təkan verildi, səmərəli və məhsuldar idarəçilik sisteminin təşkili, təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atıldı, dövlətin sosial, siyasi, hüquqi, iqtisadi və ideoloji funksiyalarına yenidən baxıldı. 1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra dövlət idarəçilik sisteminin bütün sahələrində olduğu kimi, dövlət qulluğunda da islahatlar həyata keçirildi. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1998-ci ildə imzaladığı fərmanla dövlət idarəçilik sistemində islahatların uğurunu təmin etmək üçün dövlət komissiyası təşkil olundu. Fərmana əsasən demokratikləşmə və bazar iqtisadiyyatı sahəsində aparılacaq islahatlar dövlət idarəçiliyinin səmərəliliyi və məhsuldarlığını artırmalı, iqtisadiyyatın inkişafı üçün beynəlxalq standartlara cavab verən hüquqi zəmin təmin etməli idi. Nəticə etibarilə əvvəlki sistemdən qalma bir çox təşkilatlar ləğv edilmiş, müasir idarəçilik sisteminə uyğunlaşa bilən yeni qurum və müəssisələr təsis edilmiş, idarəçilik sisteminin səmərəliliyini artıracaq hüquqi tənzimləmələr aparılmışdır. Bu addımlar sırasında ən önəmli olanı Azərbaycan Respublikası dövlət qulluğu sisteminin əsasını təşkil edən "Dövlət qulluğu haqqında" qanunun qəbul edilib qüvvəyə minməsidir. Qanunun məqsədi "Azərbaycan Respublikasında dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləməkdir". Çünki dövlətin vətəndaşa lazımi xidmət göstərməsi effektiv dövlət qulluğu sisteminin təşkili və bu sistemin ən vacib tərkib hissəsi olan dövlət qulluqçularının səmərəli fəaliyyətləri ilə birbaşa bağlıdır. Eyni zamanda, bacarıqlı şəxslərin işə qəbulu, onların vəzifədə yüksəlmələri, hüquqları, vəzifələri, nəzarət məsələlərini tənzimləyən dövlət qulluğu sistemini aktiv vəziyyətə gətirmək və qanunlarla onu möhkəmləndirmək dövlət idarəçilik sisteminin demokratikləşdirilməsi prosesində mühüm rol oynayır.

Dövlət qulluğu sistemini formalaşdırmaq, dövlət qulluqçularını qulluğa hazırlamaq üçün fərqli ölkələrdə fərqli metodlardan istifadə edilir. Seçim həmin ölkənin milli xüsusiyyətləri, mədəniyyəti, dövlətçilik ənənələri, tarixi, siyasi sistemi və digər amillərdən asılıdır. Bu baxımdan Azərbaycan Respublikasında davamlı olaraq dövlət qulluğu sistemində islahatların həyata keçirilməsi prosesinə diqqətlə yanaşılır, dövlət sektorunda qulluğu tənzimləyən hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı islahatlar reallaşdırılır. İslahatların əsas məqsədi isə innovativ idarəetmə texnologiyalarının istifadəsi ilə dövlət idarəçiliyində səmərəliliyin təmin olunması üçün dövlət qulluğunda çevikliyə və cavabdehliyə nail olmaqdır. Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" isə məhz qeyd olunan proseslərin sürətləndirilməsinə, müasir düşüncəli, vətəndaş gözləntilərinə cavab verə bilən dövlət qulluqçusu korpusunun yaradılmasına xidmət edir. Strategiya dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyət səmərəliliyinin artırılması, dövlət qulluğunda səriştə və mütərəqqi motivasiya modellərinin tətbiqi, dövlət qulluğunun informasiya təminatının yaxşılaşdırılması sahəsində və bir sıra əlaqəli sahələrdə əsaslı islahatları nəzərdə tutur. Eyni zamanda, strategiyada SWOT analizi modelinin tətbiqi ilə dövlət qulluğu sisteminin güclü və zəif cəhətləri müəyyən edilmiş, bu sahənin inkişafı ilə bağlı imkanlar və təhdidlər öz əksini tapmışdır. Dövlət qulluğunda mövcud vəziyyətin təhlilinə nəzər salsaq görərik ki, Azərbaycan Respublikasında müxtəlif dövlətlərin qabaqcıl təcrübəsindən istifadə edilməklə özünəməxsus dövlət qulluğu sistemi formalaşmışdır. Eyni zamanda, dövlət qulluğu sahəsində münasibətləri tənzimləyən normativ hüquqi baza yaradılmış; status və funksiyalarına uyğun olaraq dövlət orqanlarının kateqoriyaları müəyyən edilmiş; dövlət qulluğu vəzifələrinin təsnifatlar üzrə bölgüsü aparılmış; dövlət qulluğuna qəbulun və dövlət qulluğu vəzifələrinin tutulmasının şəffaf həyata keçirilməsi üçün prosedurlar işlənmiş; dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi, onların fəaliyyətinin qiymətləndirilməsi, mükafatlandırılması, intizam məsuliyyətinə cəlb edilməsi və sair prosedurlar qanunvericiliklə tənzimlənmiş; dövlət qulluqçularının əməyinin ödənilməsi və sosial təminatı sistemləri yaradılmış; dövlət qulluqçularının etik davranış qaydaları təsdiqlənmiş; dövlət qulluğu sahəsində qanunvericiliyin tətbiqinə nəzarəti, dövlət qulluğunun normativ metodiki təminatını həyata keçirən Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası formalaşdırılmış; dövlət idarəçiliyi sahəsində mütəxəssislərin hazırlanması və peşəkarlıq səviyyələrinin artırılması, həmin sahədə elmi tədqiqatlar aparılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və dövlət qulluqçuları haqqında mərkəzləşdirilmiş məlumat bazası olan Dövlət Qulluqçularının Reyestri yaradılmışdır. Strategiyanın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planında isə dövlət qulluğunda həyata keçirilməsi nəzərdə tutulan proqram əsaslı tədbirlər, hədəflər qeyd olunmuşdur. Bunlar isə innovativ idarəetmə texnologiyalarının tətbiqi ilə innovasiyayönümlü dövlət qulluğu sisteminin formalaşmasını zəruri edir. Dövlət qurumlarında müstəqil innovasiyalar norma deyildir. İnnovasiya daha çox inkişafla bağlıdır və adətən xarici mühitdə meydana gəlir. Təkamül modelləri göstərir ki, innovasiyalar mövcud fəaliyyətdən irəli gələn bir sıra əlavə dəyişikliklərin birləşməsinin təsiri nəticəsində meydana çıxır. Belə ki, qurumun strateji atributlar sistemi mütəmadi olaraq yeni strateji aktivləri və yeni məhsulları birləşdirərək inkişaf edir. Əgər innovasiyalar davamlı inkişaf edən fəaliyyətə əsaslanırsa, müxtəlif növ innovasiyalar arasındakı tamamlayıcı əlaqələri nəzərə almaq lazımdır. Azərbaycanın brendi olan "ASAN xidmət" ilə digər dövlət qurumlarının qarşılıqlı fəaliyyətinin təmin olunması bunun bariz nümunəsidir. Bu aspektdən baxanda Azərbaycan Respublikasında son illərdə dövlət idarəçilik sistemində həyata keçirilən islahatlar çərçivəsində dövlət qulluğundakı innovasiyaları dinamik bir proses kimi nəzərə almaqla, təşkilati innovativlik və performansla bağlı daha ətraflı hesabatın əldə oluna biləcəyini iddia etmək olar. Bu arada dövlət qulluğuna dair qanunvericiliyin təkmilləşdirilməsi və institusional islahatların həyata keçirilməsi istiqamətində vacib məsələlərdən biri kimi Azərbaycan Respublikası Dövlət Qulluğu Məcəlləsi layihəsinin hazırlanıb müzakirəyə verilməsinin müsbət nəticələrə yol açacağına şübhə yoxdur. Bu məcəllənin qəbulu dövlət qulluğu sferasında hüquqi münasibətləri tənzimləyən qanunvericilik aktlarının sistemləşdirilməsi və hüquqi tənzimetmənin səmərəliliyinin artırılmasına səbəb olacaq, dövlət qulluğu vəzifələrinin iyerarxiyasının optimallaşdırılması, dövlət qulluğunda şəffaflıq və dövlət qulluğunun qeyri-dövlət sektoru ilə rəqabət qabiliyyətinin artırılmasına öz töhfəsini verəcəkdir.

Strategiyada müəyyən olunmuş məqsədlərə nail olunması istiqamətində əsas məsələlərdən biri də dövlət qulluqçularının bilik və bacarıqlarının təkmilləşdirilməsidir. Göründüyü kimi, dövlət qulluğunda kadr potensialının inkişaf etdirilməsi istiqamətində islahatlar zamanın tələbi kimi çıxış etməkdədir. Vətəndaş gözləntilərini nəzərə almaqla islahatların uğurunu təmin etmək üçün kadr potensialının qiymətləndirilməsi mövcud potensialın müəyyənləşdirilməsi və onun bazasında potensialın gücləndirilməsi zərurətini yaradır. Demək lazımdır ki, kadr potensialının qiymətləndirilməsi və bunun əsasında insan potensialının gücləndirməsi məsələləri səmərəli idarəetmənin vacib elementləridir. Bu isə öz növbəsində bilik və bacarığın, təcrübənin, uzaqgörənliyin, təşəbbüskarlığın əsas götürüldüyü kadr potensialının inkişaf etdirilməsini zəruri edir. Kadrların təkmilləşdirilməsi, dövlət və özəl sektorlararası keçidin optimallaşdırılması üçün peşəkar potensialın inkişaf etdirilməsi prosesinin düzgün təşkili mühüm əhəmiyyət kəsb edir. Qeyd edilənlər müasir dövlət idarəçiliyinin tələbidir. İnsan potensialının planlaşdırılması kimi bilinən bu proses gələcəyə istiqamətlənib və davamlı inkişaf naminə dövlət qulluğu sisteminin təkmilləşdirilməsinə töhfə verir. Eyni zamanda, kadr potensialının gücləndirilməsi adətən qərar qəbulunda iştirak edən dövlət qulluqçularının yenidən hazırlanmasını şərtləndirir. Azərbaycan Prezidenti İlham Əliyev dövlət qulluqçularının hazırlanması işinin təkmilləşdirilməsi, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, dövlət idarəçiliyinə dair nəzəri biliklərinin artırılması, habelə bu sahədə vahid kadr siyasətinin həyata keçirilməsi məqsədilə 11 dekabr 2014-cü il tarixli fərman imzalamışdır. Fərmanda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında dövlət qulluqçuları üçün ixtisasartırma və yenidənhazırlanma növləri üzrə əlavə təhsilin təşkil edilməsi və bunun dövlət sifarişi əsasında dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi qeyd olunmuşdur. Məhz bunun nəticəsi olaraq akademiyada dövlət qulluqçularının peşəkar inkişafının yüksəldilməsinə, yenilikləri qəbul etmək və öyrənmək qabiliyyətinin artırılmasına xüsusi diqqət yetirilir və bu sahədə innovativ metodlardan istifadə olunur. Akademiyada ölkədə ilk olaraq dövlət qulluqçularının yenidən hazırlanması prosesində distant təhsilin imkanlarından istifadə edilir, regional kadr hazırlığının daha optimal və səmərəli formaları sınaqdan keçirilir. Bunların sırasında getdikcə müntəzəm xarakter alan səyyar və distant treninq və seminarları xüsusi qeyd etmək yerinə düşər.

Dövlət qulluğunda innovasiyaların tətbiqi ilə bağlı dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi məsələsi də olduqca önəmlidir. Siyasi və praktiki cəhətdən çox əhəmiyyətli olan xidməti fəaliyyətin qiymətləndirilməsi dövlət qulluqçusunun xidməti davranışının, qarşıya qoyulan tapşırıqların icra vəziyyəti nəzərə alınmaqla, müxtəlif meyarlar əsasında bilavasitə rəhbər tərəfindən yoxlanılması və qiymətləndirilməsi prosesidir. Dövlət qulluqçuları vəzifələrini əvvəlcədən müəyyən olunmuş qaydalar çərçivəsində həyata keçirir və dövlətin ən çox etibar etdiyi şəxslərdir. Ancaq bu etibardan sui-istifadə edilməməli, səmərəliliyə xələl gətirilməməlidir. Bu aspektdən baxanda səmərəliliyin ölçülməsi real olmalı, obyektiv meyarlara söykənməlidir. Dövlət qulluqçularının vəzifədə irəli çəkilməsi, əməkhaqqının artırılması, mükafatlandırılması, motivasiyası və s. onların fəaliyyət səmərəliliyi dərəcəsinə görə müəyyən olunmalıdır. Dövlət qulluqçularının qiymətləndirilməsinə müasir yanaşmalar onların fəaliyyət səmərəliliyinin artırılması məqsədini daşıyır. Fəaliyyət səmərəliliyinin yüksəldilməsinə təsir edən amillərin müəyyən edilməsi isə müasir dövlət idarəçilik elminin ən vacib problemlərindən biri hesab olunur. Azərbaycan Respublikasında dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30-1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır (10 fevral 2014-cü il) və inzibati vəzifələrin üçüncü - yeddinci təsnifatlarına uyğun olan inzibati vəzifə tutan dövlət qulluqçularına aiddir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən, respublikamızda 2019-cu il yanvarın 1-nə dövlət qulluqçularının sayı 29127 nəfər olmuş və onların 28,5 faizini qadınlar təşkil etmişdir. Dövlət qulluqçularının 4,5 faizi inzibati vəzifələrin ali 3-cü təsnifatı, 75,7 faizi 4-7-ci təsnifatlar üzrə və 19,8 faizi dövlət qulluğunun yardımçı vəzifələrində çalışanlardır. Hər il təqribən 22000 dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilir. Hazırda beynəlxalq təcrübə və qiymətləndirmə qaydalarının tətbiq olunduğu 5 illik müddətdə əldə olunan nəticələr əsas götürülərək yeni layihədə qiymətləndirmə qaydaları işlənilir.

Son 30 ildə dünyanın bir çox ölkələrində etika və dövlət xidməti dəyərlərinə artan marağın dövlət qulluğunda islahatlarla paralellik təşkil etməsi təsadüfi deyil. Bu həm cəmiyyətin müxtəlif sahələrində baş verən dəyişikliklər (dövlət qulluqçularının gözləntiləri, daha iddialı, yaxşı bilikli vətəndaşlar, qloballaşma və s.), həm də dövlət qulluqçularının qanuni çərçivə daxilində hərəkət etmələrinə dair minimum davranış standartlarının müəyyənləşdirilməsi və etika infrastrukturunun inşa olunması ilə əlaqələndirilir. Etik infrastruktur isə əsasən etik prinsiplərin bəyan edilməsi, davranış standartları, etik davranış şüurunu artırmağa və təkmilləşdirməyə yönələn vasitələr, etik nəzarət, etik dəyər və proqramların idarə olunması və qiymətləndirilməsi məsələlərini əhatə edir. Dövlət qulluqçuları üçün etik davranış qaydaları hazırlanarkən, qaydaların və normativlərin quruluşu dəqiqləşdirilməzdən əvvəl əsas etik dəyərlərin müzakirəsi və ölkənin ictimai rəyində fikir birliyinin əldə olunduğu məqamların diqqətə alınması tövsiyə edilir. Yuxarıda qeyd olunan strategiyanın əsas məqsədlərindən biri kimi yüksək mənəvi və etik dəyərləri əsas tutan dövlət qulluqçularının formalaşdırılması, eləcə də dövlət qulluqçularının etik davranış qaydalarının tətbiqinin təkmilləşdirilməsi müəyyənləşdirilmişdir. Azərbaycan Respublikası dövlət qulluqçularının etik davranış qaydaları haqqında qanun 2007-ci ildə qəbul edilərək qüvvəyə minmişdir. Haqqında bəhs edilən qanunda dürüst davranış, professionallıq, loyallıq, sədaqət, xalqın etibarının qorunması, hüquqlara, azadlıqlara və qanuni mənfəətlərə hörmət, mədəni davranmaq, əmr və təlimatların və ya verilən vəzifələrin yerinə yetirilməsi, obyektivlik, korrupsiyanın qarşısının alınması, hədiyyənin qəbul edilməsi ilə əlaqəli məhdudiyyətlər, maraqlar toqquşmasının qarşısının alınması, əmlakdan, informasiyadan istifadə və siyasi fəaliyyətlər başlıqları altında dövlət qulluqçularının etik davranış qaydaları tənzimlənmişdir. Ölkə Prezidentinin bu sahədə həyata keçirdiyi islahatlar isə səmərəli dövlət idarəçiliyinin təzahürü kimi özünü büruzə verir. Belə ki, səmərəli dövlət idarəçiliyi insanların yaşayış şəraitinin yaxşılaşdırılması prinsipinə köklü şəkildə təsir göstərməli və vətəndaşların birgə rifahının təmin edilməsinə istiqamətlənməlidir. Bu səbəbdən səmərəli dövlət idarəçiliyi işinin xalqın real problemlərinə yönəldilməsi və cəlb olunan sektorları dinləməklə həll yollarının axtarmağa çalışılması tamamilə əsaslıdır. Azərbaycanda bütün dövlət qulluqçularından tələb olunan etik davranış qaydalarına aid standartlar təkmilləşdirilmişdir. Ümumilikdə dövlət qulluqçuları üçün qüvvədə olan standartlara əlavə olaraq, dövlət fəaliyyətinin həyata keçirilməsində məsuliyyət daşıyan, maraqlar toqquşması riskinin yüksək olduğu həssas sahələrdə işləyən müəyyən qruplar və ya peşələr üçün əlavə təlimatlar hazırlanmış, etik davranış qaydalarının nəşr olunması və bu qaydaların səmərəli bir şəkildə tətbiq olunması istiqamətində hüquqi çərçivə və güclü nəzarət mexanizmi formalaşdırılmışdır.

Yuxarıdakıları ümumiləşdirərək qeyd etmək lazımdır ki, dövlət idarəçiliyində səmərəliliyin təmin olunması baxımından dövlət qulluğu sisteminin təkmilləşdirilməsi fərqli zaman və məkanlarda aktuallıq kəsb edən prioritet məsələdir. Bu istiqamətdə uğurun zəmanəti hakimiyyət və vətəndaş cəmiyyətinin birgə təşəbbüslərinin koordinasiyasıdır. Hazırda dövlətin strateji vəzifəsi əhalinin həyat səviyyəsi və keyfiyyətinin davamlı olaraq yüksəldilməsidir. Heç təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayır ki, dövlət məmurları öz vəzifə borcuna məsuliyyətlə yanaşmalıdır. Ölkə Prezidentinin məmurlardan və dolayısı ilə yenidən formalaşdırılan dövlət qulluğu sistemindən qətiyyətli tələbi budur: "Birbaşa xalqla ünsiyyətdə olan məmurlar elə etməlidirlər ki, insanlar onların fəaliyyətindən razı olsunlar. Diqqətli olmalıdırlar, yaddan çıxarmamalıdırlar ki, biz xalq üçün çalışırıq, əksinə deyil. Bizim vəzifəmiz xalqa xidmət etməkdir". Fikrimizcə, dövlət başçısının bu sözləri bütün dövlət qulluqçuları tərəfindən fəaliyyət proqramı kimi qəbul olunmalıdır.

***Rəcəb RƏHİMLİ,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində dövlət qulluğuna yeni qəbul olunan əməkdaşların andiçmə mərasimi olub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində müvafiq müsabiqə və müsahibə mərhələlərində uğur qazanaraq nazirlik sistemində dövlət qulluğunun inzibati vəzifələri üzrə vakant yerlərə yeni işə qəbul olunan əməkdaşların andiçmə mərasimi olub.





Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev tədbir iştirakçılarını qarşıdan gələn 23 iyun - dövlət qulluqçularının peşə bayramı günü münasibətilə təbrik edib. Nazir qeyd edib ki, dövlət qulluğu sisteminin vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, əhaliyə xidmətin yüksək səviyyədə təşkili, vətəndaş məmnunluğuna nail olunması prinsipi üzərində qurulması Prezident İlham Əliyevin islahatlar proqramının əsas hədəflərindən biridir.

Nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ölkəmizdə dövlət idarəetmə sisteminin bütün sahələrində müasir, innovativ, optimal mexanizmlərin tətbiqi istiqamətində aparılan islahatları diqqətə çatdıran S.Babayev dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi sahəsində də aparılan müvafiq işlərdən bəhs edib. Bildirib ki, dövlət başçısının bu günlərdə reallaşan növbəti sosial islahatlar paketi dövlət qulluqçularının da əməkhaqlarının 50 faiz artırılmasını nəzərdə tutur.

S.Babayev qeyd edib ki, nazirlik sistemində dövlət qulluğunun inzibati vəzifələri üzrə vakant yerlərə işə qəbul dövlət qulluğu haqqında qanunvericiliyə uyğun şəkildə, Dövlət İmtahan Mərkəzi ilə birgə iş müstəvisində həyata keçirilir. Ötən bir il ərzində nazirlik sistemində dövlət qulluğunun inzibati vəzifələri üzrə 332 nəfər işə qəbul edilib. Əmək, məşğulluq, sosial müdafiə sahələrində aparılan genişmiqyaslı islahatlar nazirlik sistemində işləmək arzusunda olanların sayının da artmasına səbəb olub. Bir sıra hallarda hətta bir vakant yerə iddiaçı sayı 10 nəfəri ötür. Kadrların nazirlik sisteminə qəbulu prosesində kadrların müvafiq sahədə bilik, dünyagörüşü, müasir bilik və bacarıqlarla yanaşı, məsuliyyət hissinə və mənəvi keyfiyyətlərə malik olmaları da əsas seçim və işə qəbul meyarlarından biridir.

Nazir bildirib ki, yeni işə qəbul olunan əməkdaşlar Prezident İlham Əliyevin dövlət qulluqçuları qarşısında müəyyən etdiyi "Dövlət məmuru xalqın xidmətçisidir", "Dövlət məmuru cəmiyyətdə hər bir vətəndaş üçün nümunə olmalıdır" kimi vacib prinsiplərə uyğun fəaliyyət göstərməlidirlər. Onlar nümunəvi xidmətləri, dövlət qulluqçularının etik davranış qaydalarına uyğun davranışları, əmək, məşğulluq, sosial müdafiə sahəsində dövlət siyasətinin icrasına töhfə vermək əzminə söykənən səmərəli fəaliyyətləri ilə seçilməlidirlər.

Sonra nazirliyin Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Nərmin Bayramova nazirlik sistemində dövlət qulluğunun inzibati vəzifələri üzrə vakant yerlərə işə qəbul prosesinin nəticələri barədə məlumat verib.

Yeni işə qəbul olunan gənclər "Dövlət qulluğu haqqında" qanuna uyğun olaraq, Azərbaycan Respublikasına sadiq olacaqlarına, ölkəmizin Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, dövlət qulluğunun verdiyi hüquqları və üzərlərinə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, ancaq qanunauyğun surətdə, var gücləri ilə və vətənin mənafeyi naminə həyata keçirəcəklərinə and içiblər.

Andiçmə Azərbaycan Respublikasının dövlət bayrağı altında Azərbaycan Respublikasının Konstitusiyasına əl basmaqla həyata keçirilib.

Sonra Azərbaycan Respublikasının Dövlət himni səslənib.

Dövlət qulluğuna yeni işə qəbul edilən şəxslər çıxış edərək, bu gündən dövlət qulluqçusu kimi fəaliyyət göstərməyin onlar üçün böyük şərəf olduğunu, öz vəzifələrinin icrasına daim işgüzarlıq və məsuliyyətlə yanaşaraq, göstərilən inam və etimadı layiqli səviyyədə doğruldacaqlarını vurğulayıblar.

# Xəzərin perspektiv strukturları: "Dayazsulu Abşeron"

*Əvvəli 1-ci səh.*

Üçölçülü seysmik tədqiqat proqramı 2016-cı il mayın 31-də başlanmış və dekabrın 27-də müvəffəqiyyətlə yekunlaşmışdır. Bu tədqiqat 1300 kvadratkilometr ərazidən üçölçülü məlumatın əldə olunmasını əhatə etmişdir. Tədqiqat proqramı BP-nin qabaqcıl, patentləşdirilmiş Müstəqil Sinxron Mənbələr (Independent Simultaneous Source with Nodes - ISSNtm) texnologiyası vasitəsilə həyata keçirilmişdir.

2016-cı ildə ərazidən əldə edilmiş üçölçülü məlumatların interpretasiyası və emalı 2017-ci ilin dördüncü rübündə yekunlaşmışdır. SOCAR-la Perspektivlik haqqında bildiriş imzalanmaqla BP-nin Abşeron yarımadasının dayazsulu hissəsində üç perspektiv ərazidə kəşfiyyat quyuları qazmaq öhdəliyi müəyyən edilmişdir. Artıq quyuların qazılacağı yerlər də məlumdur.

BP Azərbaycan şirkətinin geoloji kəşfiyyat üzrə meneceri Arzu Cavadova "Dayazsulu Abşeron"un böyük layihə olduğunu və onun üzərində uzun müddətdir iş aparılmasının təsadüfi olmadığını deyir:

- Bütün ərazi boyu seysmik tədqiqat işləri aparılıb, quyuların qazılması üçün artıq üç perspektiv sahə seçilib və orada kəşfiyyat işləri davam edir. Kəşfiyyat quyularının birinin qazılacağı yer Bibiheybət dəniz sahəsidir. Digər iki quyu isə Abşeron yarımadasının şərq hissəsində - Qarabatdaq və Şimali Xalı deyilən ərazilərdə qazılacaq.

"Dayazsulu Abşeron" əməliyyatçısı olan BP şirkətinə dünyanın digər yerlərində dayazsulu ərazilərdə geoloji-kəşfiyyat işlərinin aparılması, həmin ərazilərin işlənməsi zamanı qazandığı geniş təcrübə və səriştədən, eləcə də sənayedə mövcud olan ən qabaqcıl texnologiyalardan istifadə etməyə imkan yaradır.

"Dayazsulu Abşeron" neftlə, yoxsa qazla zəngindir? Mütəxəssislər strukturun sərvətinin neft olacağını ehtimal edirlər. Qazma yaxın aylarda başlanacaq və mərhələlərlə aparılacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Sahibkar bağban ixracata üstünlük verir

*Əvvəli 1-ci səh.*

Bundan başqa, təzəlikcə müasir plastik tara istehsalı sexi də istifadəyə verilmişdir.

Təsərrüfatı dəqiq və səmərəli idarə etmək Şəmsinin əsas iş üsullarındandır. Deyir ki, əvvəllər üzümü xarici bazarlara təzə halda göndərirdilər: "Bu, o qədər də gəlirli olmurdu. Artıq bu ildən etibarən onu qurudaraq kişmiş kimi də satacağıq. Ümumiyyətlə, gələcəkdə həm öz təsərrüfatımızda istehsal olunacaq, həm də ayrı-ayrı vətəndaşlardan satın alınacaq meyvələri - ərik, gavalı, alma, armud və s. qurudub satmağı nəzərdə tuturuq".

Təsərrüfat texnika sarıdan da çətinlik çəkmir. Əkin traktoru,



müxtəlif qoşqular, çiləyicilər, torpaq yumşaldan, ağac dibi şumlayan, alaq otlarını təmizləyən və s. texnikaları var. Təsərrüfatın işçi qüvvəsi də az deyil. Belə ki, təsərrüfatda 35 nəfər daimi, 70 nəfərə yaxın mövsümi işlərə cəlb edilir.

Təsərrüfatın rəhbəri onu da vurğuladı ki, görülən işlər onu arxayınlaşdırmır. O, fəaliyyətini genişləndirməklə daha çox və daha keyfiyyətli məhsullarla xarici bazarlara çıxmaq arzusundadır. Bunun üçün isə ölkəmizdə iş adamlarına münbit şərait yaradılıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Sosial sahədə inqilabi addımların növbəti mərhələsi

Əvvəli 1-ci səh.

Sosial müavinətin məbləğinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün 61 manatdan 100 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün 68 manatdan 100 manata, beşdən çox uşağı olan qadınların hər uşağı üçün 33 manatdan 55 manata, uşağın anadan olmasına görə 109 manatdan 200 manata, dəfn üçün ödənilən sosial müavinətin məbləğinin 146 manatdan 300 manata çatdırılması bu siyahını bir qədər də genişləndirir.

## 17 sərəncamın yer aldığı növbəti sosial paket

İqtisadi sahədə əldə edilmiş mötəbər uğurların sosial sferaya transformasiyası dövlət başçısının bəyan etdiyi sosial-iqtisadi kursun başlıca prinsipi olmaqla, cari ilin əvvəlindən etibarən ölkə vətəndaşlarının sosial təminatını əhəmiyyətli dərəcədə artırdı. Bu ilin fevralında keçirdiyi müşavirədə Prezident İlham Əliyev vətəndaşların sosial rifahının yüksəldilməsi ilə bağlı addımların bundan sonra da atılacağını bəyan etdi: *“Biz əlavə gəlirləri ilk növbədə vətəndaşların sosial müdafiəsinə yönəltməliyik. Çünki bu, bizim üçün prioritet məsələdir, vətəndaşların sosial rifahının yaxşılaşdırılması ən başlıca vəzifəmizdir. Bu istiqamətdə artıq bir çox ciddi addımlar atılıb və atılacaq. Ümumiyyətlə, bildirmək istəyirəm ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır”.*

İyun ayının 18-də Prezident İlham Əliyev imzaladığı 17 sərəncamla əhalinin müdafiəsini gücləndirmək məqsədilə növbəti sosial paketi təsdiq etdi. Beləliklə, sosial sahədə ilin əvvəlində atılan inqilabi addımların yeni mərhələsinə start verildi. Yeni sərəncamların əhatə dairəsi belədir:

*- minimum aylıq əməkhaqqı 180 manatdan 250 manata çatdırılır;*

*- dövlət qulluqçularının aylıq vəzifə maaşları 50 faiz artırılır;*

*- hərbi və hüquq mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqları 40 faiz artırılır;*

*- dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılır;*

*- dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşları orta hesabla 40 faiz artırılır.*

## Minimum əməkhaqqının artımı 950 minədək vətəndaşı əhatə edəcək

Bu ilin fevralınadək minimum əməkhaqqı ölkədə 130 manat təşkil edib. Fevralın 8-dən artımla 180 manata çatdırılıb. Prezidentin son sərəncamı ilə isə minimum əməkhaqqı bu il sentyabrın 1-dən 250 manat təşkil edəcək. Bu, respublikamızda əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində 2019-cu ilin elə ilk aylarından atılan inqilabi addımların davamıdır.

Qeyd edək ki, bu artımla ölkədə minimum əməkhaqqının məbləği yaşayış minimumunu 40 faizədək üstələyəcək. Beləliklə, minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə əməkhaqqının orta hesabla 40 faiz artmaqla 265 manatdan 367 manata çatmasına imkan verir.

Xatırladaq ki, minimum əməkhaqqının artımı 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu il (sentyabr-dekabr ayları) üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq. Artımdan sonra Azərbaycanda minimum əməkhaqqı MDB ölkələri arasında alıcılıq qabiliyyətinə görə 2-ci yerdə qərarlaşacaq. Xatırladaq ki, fevral ayındakı artım 600 minədək insanı əhatə etmişdi.

Minimum aylıq əməkhaqqının artırılması ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir. Göründüyü kimi, Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramı təkcə bu il ərzində minimum əməkhaqqının təqribən iki dəfəyə yaxın artırılmaqla 130 manatdan 250 manata çatdırılması əhalinin rifahına ciddi dəstək olan mühüm sosial uğura nail olmağa imkan verib.

## Yeni sərəncam müəllimlərin əməkhaqqının 605 manata çatmasına imkan verir

Prezident İlham Əliyevin sosial islahatlar paketinin yeni uğurlu nəticələri, sosial müdafiə sahəsində atılan mühüm addımlar müəllimləri də əhatə edir. Dövlət başçısının iyunun 18-də imzaladığı “Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında” və “Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında” sərəncamlar bu istiqamətdə daha bir əhəmiyyətli addımın atılmasına imkan verib.

“Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında” sərəncamda həmin müəllimlərin aylıq vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılması tapşırılır. Bu sərəncam ümumilikdə 160 minə yaxın müəllimi əhatə edir və onların orta aylıq əməkhaqqının 605 manata çatmasına imkan verir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən əlavə olaraq illik 240 milyon manat, cari il (sentyabr-dekabr ayları) üzrə 73 milyon manat vəsait ayrılacaq.

“Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında” sərəncam qeyd olunan müəllimlərin və işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılmasını nəzərdə tutur.

Hər iki sərəncam ümumən ölkəmizdə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması tədbirlərinin getdikcə geniş vüsət aldığını, dövlət başçısının siyasətinə uyğun olaraq, dinamik iqtisadi inkişafın ilk növbədə vətəndaş rifahının təminatı hədəfinə yönəldildiyini təsdiq edir.

## Pensiyanın minimum məbləği 200 manata çatdırılır

Prezident cənab İlham Əliyevin əhalinin rifah halının yaxşılaşdırılmasında növbəti inqilabi addımların atılmasına imkan verən sosial islahatlar paketi cari il ərzində minimum pensiyanın məbləğinin növbəti dəfə əhəmiyyətli şəkildə artırılmasına da şərait yaradıb. Belə ki, dövlət başçısının yeni qanunvericilik təşəbbüsü olaraq, əmək pensiyasının minimum məbləğinin 25 faiz artırılaraq cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılması nəzərdə tutulur. Təşəbbüsə uyğun olaraq əmək pensiyasının minimum məbləğinin əhəmiyyətli şəkildə artırılmasına dair qanunvericilik layihəsi hazırlanaraq artıq Milli Məclisə təqdim olunub.

Minimum pensiya məbləğinin artırılması ümumilikdə 660 min pensiyaçını əhatə edəcək. Artım üçün illik 216 milyon manat, cari il (oktyabr-dekabr ayları) üzrə 62 milyon manat əlavə vəsait yönəldiləcək.

Bu artım ölkə rəhbərinin təşəbbüsü ilə cari il ərzində əmək pensiyasının minimum məbləğinin artırılması istiqamətində atılan artıq ikinci mühüm addımdır. Bundan əvvəl də dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında pensiyanın minimum məbləği cari il martın 1-dən orta hesabla 40 faizədək artırılaraq 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılmış, həmin artım ümumilikdə 233 min pensiyaçını əhatə etmişdi.

Beləliklə, təkcə bu il ərzində Azərbaycanda minimum pensiyanın məbləğində 72,4 faiz artım edilməklə, bu məbləğin 116 manatdan 200 manata çatdırılması təmin edilir. Əmək pensiyasının minimum məbləğinin növbəti dəfə əhəmiyyətli şəkildə artırılması Prezidentin “2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır” bəyanatının əməli müstəvidə, əhalinin, o cümlədən pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi irəliləyişləri şərtləndirən ardıcıl addımların atılmasında öz təsdiqini tapdığını göstərir.

Dövlət büdcəsində formalaşan əlavə gəlirlərin bilavasitə ölkə vətəndaşlarının sosial rifahına yönəldilməsi ölkənin kompleks iqtisadi inkişafı fonunda dövlət-vətəndaş etimad mühitini dərinləşdirməklə, aparılan sosial siyasətin alternativsiz olduğunu sübut edir. Yeni sosial paket dövlət qulluqçuları, hərbi və hüquq mühafizə orqanları əməkdaşları da daxil olmaqla 2 milyon nəfərə qədər vətəndaşı əhatə edəcək. Beləliklə, İlham Əliyevin təsdiqlədiyi növbəti sosial paket dövlət başçısının öz vətəndaşının sosial rifahının daha da yaxşılaşdırılmasına olan həssas diqqətinin növbəti təcəssümü kimi yadda qaldı. Eyni zamanda, bir daha göründü ki, dövlətin sosial siyasəti ardıcıl və sistemlidir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***







# Hərbi müttəfiqliyin zəfər təntənəsi

## Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə təlimləri hərbi əməkdaşlığın daha bir uğurlu nəticəsi oldu

Əvvəli 1-ci səh.

Türkiyə Silahlı Qüvvələri Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlərdə dəstəyini əsirgəməyib, muxtar respublikadakı ordu, birləşmə və hissələrin maddi-texniki təminatında təmənnasız kömək göstərib. 2013-cü ildən etibarən keçirilən, artıq ənənə halını alan birgə döyüş təlimləri isə uğurlu hərbi əməkdaşlığın unikal nümunəsinə çevrilib. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən iyunun 7-11-də Naxçıvanda keçirilən iki ölkənin silahlı qüvvələrinin “Sarsılmaz qardaşlıq - 2019” birgə döyüş atışlı taktiki təlimləri bu ənənənin növbəti uğurlu mərhələsi idi.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun, Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun izlədikləri döyüş atışlı taktiki təlim irimiqyaslılığı və mütəşəkkilliyi ilə fərqləndi. Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələri bölmələrinin iştirakı ilə keçirilən təlimə 5 minə yaxın şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 təyyarə, helikopter, pilotsuz uçuş aparatı, silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnika nümunələri, 30-dan çox hava hücumundan müdafiə vasitəsi və 300-ə yaxın avtomobil texnikası cəlb edilmişdi. Türkiyə Respublikası Silahlı Qüvvələrinin təlimə cəlb edilən heyəti ilə Naxçıvan Qarnizonu Qoşunlarının şəxsi heyəti arasında bölmələrin birgə idarə edilməsində vahid prosedurların tətbiqinə nail olundu, hədəflərin 85, maketlərin 90 faizindən çoxu məhv edildi.





Təlimdə qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin uğurlu koordinasiyasına nail olundu. Qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi, şərti düşmən üzərində zəfər qazanılması hərbçilərimizin vətənpərvərlik ruhu, yüksək döyüş qabiliyyəti, birliyimiz, həmrəyliyimiz, strateji tərəfdaşlığımız sayəsində istənilən qələbəni qazanmaq əzmində olduğumuzu dünyaya göstərdi. Bu, eyni soykökə malik, dini, dünyəvi təfəkkür tərzi eyni olan xalqların, milli və siyasi maraqları üst-üstə düşən iki qardaş dövlətin ordularının birliyindən yaranan uğur idi.

Hərb tariximizə uğurları ilə düşən “Sarsılmaz qardaşlıq - 2019” birgə döyüş atışlı taktiki təlimləri siyasi tarixi məqamları ilə də müasir dövlətçilik tariximizə yazılacaq hadisədir:

*- Bu təlimlər ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin 50 illiyinə təsadüf edirdi.* Ulu öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz və əvəzsiz xidmətlərindən biri Naxçıvandan başladığı ordu quruculuğudur. Ötən əsrin yetmişinci illərində əsası qoyulan, müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə ulu öndərin rəhbərliyi ilə Naxçıvanda yenidən bərpa olunan ordu quruculuğu sayəsində ötən müddətdə silahlı qüvvələrimizin Naxçıvanda yerləşən hərbi birləşmələri böyük inkişaf yolu keçərək daha da təkmilləşdi. Həyata keçirilən ordu quruculuğu prosesi nəticəsində 2013-cü ilin dekabrında muxtar respublikada 5-ci Ordu Korpusunun bazasında Əlahiddə Ümumqoşun Ordu yaradıldı. Ötən dövr ərzində Əlahiddə Ümumqoşun Ordu müxtəlif təyinatlı müasir döyüş texnikaları ilə təmin olundu, şəxsi heyətin sayı dəfələrlə artırıldı. Güclü maddi-texniki baza muxtar respublikamızın quru sərhədləri ilə bərabər, hava məkanının da mükəmməl mühafizəsinin təmin edilməsinə şərait yaratdı.

*- Birgə hərbi təlim Azərbaycan xalqının və dövlətinin həyatında xilaskarlıq və dönüş günü olan 15 İyun - Milli Qurtuluş Günü ərəfəsində keçirilirdi.* Ulu öndərin Azərbaycanın dövlət müstəqilliyinin məhv olmaqdan əbədilik yoluna çıxardığı Milli qurtuluş tariximiz isə ölkənin hərbi qüdrətinin gücləndirilməsi, Naxçıvanın çoxcəhətli intibah yoluna qədəm qoyması, Türkiyə ilə müttəfiqliyin yeni müstəvidə inkişafı ilə də xarakterizə olunur.

*- Birgə hərbi təlim ölkəmizin müstəqilliyinin və suverenliyinin möhkəmlənməsi və regionumuzda davamlı sülhə nail olmaq istiqamətində fəaliyyət göstərən Azərbaycan diplomatiyasının 100 illiyi kimi tarixi əlamətdar dövrə təsadüf etməsi ilə də səciyyələnir.* Onu da qeyd edək ki, ümummilli lider Heydər Əliyevin xarici siyasətində Türkiyə ilə əməkdaşlıq ilk sıralarda yer alır. Azərbaycan-Türkiyə əlaqələrinin əsası da xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərliyi dövründə qoyulmuşdur. Ötən dövrdə hər iki ölkə prezidentlərinin məqsədyönlü fəaliyyətləri ilə strateji tərəfdaşlığımız daha da möhkəmlənmişdir. 2016-cı il 15 iyul tarixdə Türkiyədə dövlət çevrilişinə cəhd zamanı Prezident İlham Əliyevin Türkiyə xalqı və dövlətinin müdafiəçisi kimi qətiyyətli mövqe nümayiş etdirməsi, sentyabrın 15-də Azərbaycanda Bakı şəhərinin azad edilməsinin 100 illiyi münasibətilə keçirilən paradda iki ölkənin dövlət başçılarının və silahlı qüvvələrinin iştirakı bunu real şəkildə təsdiq edir. Naxçıvanda keçirilən “Sarsılmaz qardaşlıq - 2019” birgə döyüş atışlı taktiki təlimlər də həmçinin ölkələrarası müttəfiqliyin, qardaşlığın, sədaqətin sarsılmazlığının növbəti siyasi təzahürü, rəmzidir.

*- Birgə təlimlərin Naxçıvanda, muxtariyyətin 95 illik yubileyinin qeyd olunduğu ildə keçirilməsi də mühüm siyasi mahiyyət kəsb edir.* Bu təlimlər göstərdi ki, qardaş Türkiyə 95 il əvvəl Moskva və Qars müqavilələri ilə Naxçıvanın muxtariyyət statusunun qazanılmasında, bununla da Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığında, naxçıvanlıların siyasi iradəsinin qələbə çalmasında müstəsna rol oynadığı kimi, bu gün də, gələcəkdə də Naxçıvanın yanındadır, Azərbaycanın müstəqilliyinin, haqq işinin müdafiəçisidir.

Yuxarıda sadaladığımız mühüm siyasi amillər birgə döyüş təliminin uğurla keçirilməsinə zəmin yaradan başlıca səbəblərdir. Hulusi Akar təlimi belə qiymətləndirmişdir: *“Regional təhdidlərin artdığı bir dövrdə ölkələrimizin və xalqlarımızın təhlükəsizliyini təmin etməyin yolu güclü və mübariz orduya sahib olmaqdan keçir. Güclü ordu üçünsə müasir silah və texnika, həmçinin peşəkar hərbçilər lazımdır. Peşəkar hərbçilərin yetişdirilməsinin ən optimal yolu təlimlərin keçirilməsidir. Təlimlərdə əsgər və zabitlərin ərazi və hava şərtləri ilə tanış olması döyüşə hazırlığı baxımından çox əhəmiyyətlidir. Çünki şəxsi heyət döyüş həmlələrini təlimlərdə öyrənir. Xüsusilə müştərək və birləşmiş təlimlər birbirimizi tanımamıza, çiyin-çiyinə mübarizə aparmağımıza böyük dəstək verir. Dostluq və birgə əməkdaşlıq çərçivəsində icra etdiyimiz “Sarsılmaz qardaşlıq - 2019” təliminin layiqli şəkildə məqsədinə çatdığının və böyük müvəffəqiyyətlə yerinə yetirildiyinin şahidi olduq”.*

Bu təlim muxtar respublikada ordu, birləşmə və hissələrin döyüş qabiliyyəti və maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işləri şərhsiz və izahsız bir daha göstərdi. Türkiyə Respublikasının müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətinin Əlahiddə Ümumqoşun Ordunun “N” saylı hərbi hissəsindəki Təlim-Tədris Mərkəzi, əsgər yeməkxanası ilə tanışlığı, Heydər Əliyev adına Hərbi Liseydə olmaları onlarda bu barədə kifayət qədər zəngin təəssürat yaratdı. Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun da iştirakı ilə Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün yeni yaşayış binasının istifadəyə verilməsi hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasının əyani göstəricisidir. Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov da buradakı çıxışında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə muxtar respublikada ordu quruculuğu sahəsində mühüm işlər görüldüyünü vurğulamışdır.

Təlimdəki yüksək döyüş hazırlığı və müasir silahlanma da ordu quruculuğu prosesinin yalnız hərbi paraddakı nizami keçiddən ibarət olmadığını, muxtar respublikada kifayət qədər peşəkar hərbçi kadrların yetişdiyini göstərdi. Ən əsası isə, ordudakı yüksək vətənpərvərlik əzmini, ruh yüksəkliyini sərgilədi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov əsgər və zabitləri, tədbir iştirakçılarını Azərbaycan və Türkiyə silahlı qüvvələrinin birgə təlimlərinin uğurla başa çatması münasibətilə təbrik edərək demişdir: *“Ordu quruculuğu tədbirləri sırasında hərbi təlimlərin əhəmiyyəti böyükdür. Çünki təlimlər əsgər və zabitlərdə hərbi vərdişləri formalaşdırır, onların döyüş hazırlığını artırır. Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürk deyirdi ki, “Hər hansı bir ordunun dəyəri onun əsgər və komandan heyətinin dəyəri ilə ölçülür”. Azərbaycan-Türkiyə birgə hərbi təlimində qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi bir daha əminlik yaratdı ki, təlimə cəlb olunmuş şəxsi heyətlərdə yüksək döyüş hazırlığı vardır... Ordunun gücünü və döyüş qabiliyyətini yalnız maddi-texniki baza və silah təminatı deyil, həm də şəxsi heyətin vətənpərvərliyi və birliyi artırır. O ordu güclüdür ki, onun əsgər və zabitlərində vətənpərvərlik və birlik olsun. Keçirilən təlimdən çıxan nəticə də ondan ibarətdir ki, bir millətin, iki dövlətin silahlı qüvvələrində yüksək vətənpərvərlik və birlik vardır”.*

Hərbçilərimiz bu təlimdə sanki düşmənlə ölüm-dirim mübarizəsinə girərək halal torpaqlarımıza göz dikəcək xainlərin külünü göyə sovura biləcəklərini sübut etdilər. Onların əllərindəki ən müasir, odsaçan silahlar yox, düşmənə qarşı gözlərindəki qəzəb və kin vulkanı daha dəhşətli, qəlblərindəki qələbə əzmi daha güclüdür! Bugünkü igid əsgər övladlarımız ötən əsrin 90-cı illərinin əvvəllərində - Naxçıvanın ürəyinin Sədərəkdə döyündüyü zamanlar - əliyalın, amma bir o qədər də məğrur və cəsur şəkildə canı ilə düşmənə sipər olub vətən torpaqlarını müdafiə edənlərin şərəfli xələfləridir. Onlar Aprel zəfəri və Günnüt qələbəsindən ilham alan müzəffər ordumuzun əsgərləridir! Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün yeni yaşayış binası istifadəyə verilən zaman muxtar respublika rəhbərinin sevgi, qayğı və nəvaziş dolu təbəssümü, qardaş ölkənin milli müdafiə nazirinin sığalı ilə fərəhlənən, bapbalaca ürəyində böyüdükcə böyüyəcək vətən eşqi ilə sabahın məşhur sərkərdəsi, generalı olacaq o hərbçi oğlunun gözlərindəki qürurdan boylanır sabahkı zəfər sevincimiz!

Ermənistanda böyük təlaş və təşviş yaradan bu təlim iki dövlətin bir millət, bir ordu olduğunda nələr edə biləcəyini göstərdi! Göstərdi ki, qardaş türk xalqı ilə dinimiz, dilimiz bir olduğu kimi, andımız, niyyətimiz, hədəfimiz və bu hədəfə çatmaq üçün milli iradəmiz də, gücümüz də birdir! Bu güc və iradə sarsılmazdır!

***Mehriban SULTAN,***
***“Şərq qapısı” qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının əməkdar jurnalisti***

# Təhsilin inkişafına göstərilən yüksək qayğının daha bir ifadəsi

Son illər təhsil sahəsinin inkişafı, müəllim nüfuzunun, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində olduqca əhəmiyyətli işlər həyata keçirilir. Öz peşəsini sevən, bilik və bacarıqlarını artırmağa çalışan müəllimlərimizin əməyi dövlət tərəfindən daim qiymətləndirilir.

Prezident İlham Əliyevin imzaladığı “Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında” sərəncam bu istiqamətdə növbəti addımdır. Sərəncama əsasən, dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılır. Maaşları artırılanlar arasında dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlər, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilər də var.

Müəllimlərimizin üzərinə çox böyük vəzifələr düşür. Biz müstəqil ölkəmizə layiqli vətəndaşlar yetişdirməliyik. Elə vətəndaşlar ki, Azərbaycanın tarixi ənənələrini yaşatsınlar, milli xüsusiyyətlərimizi qoruyub saxlasınlar, öz yüksək savadları, dərin bilikləri, mənəvi dəyərlərə hörmətləri ilə ölkəmizi, xalqımızı dünyada təbliğ etsinlər. Bu istiqamətdə respublikamızda təqdirəlayiq işlər görülür.

Təhsilin inkişafı və cəmiyyətin bütün sahələrinə nüfuz etməsi hazırda Azərbaycan dövlətinin ali məqsədlərindən biridir. Bu məqsədin həyata keçirilməsi biz müəllimlərdən yüksək savad və peşəkarlıq tələb edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli təhsil islahatlarının bir hissəsini də ixtisaslı müəllim kadrların hazırlanması, onların sosial vəziyyətinin yaxşılaşdırılması təşkil edir.

Bu baxımdan “Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında” sərəncam respublikamızda təhsilin inkişafına göstərilən yüksək qayğının daha bir ifadəsidir.

***Sahilə FƏRƏCOVA,***
***Sabunçu rayonu, Bilgəh qəsəbəsi, Telman İsgəndərov adına 142 saylı tam orta məktəbin müəllimi***

# Sosial islahatlar böyük uğurlara yol açır

“Mən müəllim adından uca, şərəfli ad tanımıram” deyən ümummilli lider Heydər Əliyev gənc nəslin yetişməyində, cəmiyyətə layiq vətəndaş kimi formalaşmasında xüsusi rolu olan müəllimlərə daim yüksək diqqət və qayğı ilə yanaşardı.

Bu qayğı hazırda Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Ölkəmizin iqtisadi qüdrəti artdıqca müəllimlər də bunu öz gündəlik həyat tərzində, dolanışığında hiss edirlər.

Bu günlərdə ölkə rəhbərinin imzaladığı inqilabi sərəncamlar hamı kimi, müəllimlər ordusunu da xeyli sevindirib. Niyə də sevinməsinlər. “Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında” sərəncamla müəllimlərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılacaq.

Əməkhaqlarının əhəmiyyətli artımı müəllimlərin alıcılıq qabiliyyətinə müsbət təsir etməklə, iqtisadi aktivliyin daha da yüksəlməsinə töhfə verəcək. Bu isə xalq-iqtidar birliyini daha da möhkəmləndirir.

Biz müəllimlər ona da əminik ki, Prezident İlham Əliyevin inqilabi sosial islahatları Azərbaycana böyük uğurlar qazandıracaq.

***Ruziyyə KƏRƏMOVA,***
***Şabran şəhər 1 saylı tam orta məktəbin müəllimi***

# Xüsusi təyinatlı təhsil müəssisələri ölkəmizin hərbi təhsil sistemində özünə layiqli yer tutur





İyunun 22-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsinin məzunlarının növbəti buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində keçirilən mərasimdə Müdafiə Nazirliyinin rəhbərliyi, yüksək rütbəli zabitləri, Ali Hərbi Məktəbin, ictimaiyyətin nümayəndələri, veteranlar, məzunların ailə üzvləri və yaxınları iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Müdafiə Nazirliyinin nümunəvi hərbi orkestrinin və kursantların ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanov əlamətdar gün münasibətilə gənc zabitləri, onların valideynlərini təbrik edib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər həyata keçirilən kompleks islahatların nəticəsində bu gün Azərbaycan Ordusunun istənilən döyüş əmrini yerinə yetirməyə tam hazır olduğunu bildirən Nizam Osmanov məzunlara ölkəmizin gələcəyi, ordumuzun, dövlətimizin müdafiə qüdrətinin daha da yüksəldilməsi naminə xidmətlərində uğurlar diləyib. N.Osmanov qeyd



edib ki, Azərbaycan Ordusu və xalq arasında sarsılmaz birlik var. Xalq Silahlı Qüvvələrimizi dəstəkləyir və daim öz ordusunun yanındadır.

"Bu gün ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının, silah-sursat arsenalının müasirləşdirilməsi istiqamətində, eləcə də tibb müəssisələrinin müasir avadanlıqla tam təchiz edilməsi, müharibə şəraitində ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi üçün mühüm işlər görülüb. Bütün bu uğurların əldə edilməsində, Silahlı Qüvvələrin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində Azərbaycanın iqtisadi inkişafı vacib rol oynayır. Beynəlxalq hərbi tədqiqat mərkəzləri də təsdiqləyir ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Azərbaycan bu uğurlara hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində nail olub", - deyə N.Osmanov deyib.

General-leytenant bildirib ki, cari ilin aprelində Xüsusi Təyinatlı Qüvvələrin döyüş hazırlığı üzrə məşğələlərini izləyən Prezident, Ali Baş Komandan ordumuzun bütün şəxsi heyətinin hazırlıq səviyyəsini və peşəkarlığını yüksək qiymətləndirib. Ordu quruculuğu sahəsində görülən işlər, xüsusilə də silahlanmaya qəbul edilən ən müasir silah və hərbi texnika, o cümlədən yeni texnologiyaların tətbiqi ilə istehsal olunmuş döyüş vasitələri, bölmələrimizin hərtərəfli təchizatı, müntəzəm keçirilən genişmiqyaslı hərbi təlimlər Azərbaycan Ordusunun döyüş qabiliyyətini yüksəldir, şəxsi heyətin mənəvi-psixoloji durumuna və döyüş ruhunun yüksəlməsinə müsbət təsir göstərir.

Silahlı Qüvvələrdə digər sahələrlə yanaşı, təhsilin inkişafına da böyük diqqət yetirilir. Xüsusi təyinatlı təhsil müəssisələri uğurlu inkişaf yolu keçərək respublikanın hərbi təhsil sistemində özünə layiqli yer tutur. Xüsusi təyinatlı təhsil müəssisələrinin 2019-cu il buraxılış imtahanlarının nəticələrindən məlum olur ki, ötən illərlə müqayisədə imtahanlarda yüksək nəticə göstərənlərin sayı artıb.

Sonra ali hərbi məktəbi fərqlənmə ilə bitirən məzunlara diplomlar və qiymətli hədiyyələr təqdim olunub.

Məktəbi fərqlənmə ilə bitirən məzunlar üzərində ulduz və aypara təsviri olan emblemləri rəmzi yaş kötüklərinə vurublar.

Daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin döyüş bayrağının təhvil verilməsi və qəbul edilməsi mərasimi olub. Ali Hərbi Məktəbin döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verilib.

Tədbir iştirakçıları diplom və ilk "leytenant" hərbi rütbəsi almaları münasibətilə məzunları təbrik edib, onlara Azərbaycanın gələcəyi, ordumuzun inkişafı, dövlətçiliyimizin müdafiəsi və ölkənin müdafiə qüdrətinin daha da yüksəldilməsi naminə xidmətlərində uğurlar arzulayıblar.

Nümunəvi orkestrin və kursantların ifasında məktəbin marşı ifa edildikdən sonra şəxsi heyət hərbi marşın sədaları altında tribunanın önündən keçib.

# "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans xarici mətbuatda geniş işıqlandırılıb

İyunun 19-da Vyanada keçirilmiş "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda konfrans Mərkəzi Avropa ölkələrinin aparıcı mətbuat orqanlarının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, Avstriya, Almaniya və İsveçrənin aparıcı mətbu orqanları və internet portalları dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinə həsr olunmuş bu mühüm tədbiri geniş işıqlandırıblar. Avstriyanın APA agentliyi, "Die Presse" və "Der Standard" gündəlik qəzetləri, Almaniyanın "Der Tagesspiegel" və "Focus online" portalları, www.pr-board.de, www.finanzen.net saytları, İsveçrənin www.presseportal.ch saytı Vyana beynəlxalq konfransının gedişatı, əhəmiyyəti və qəbul olunmuş Yekun Bəyannamənin mahiyyəti barədə məqalələr dərc ediblər.

Məqalələrdə konfransın Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin, Cenevrə İnsan Hüquqları və Qlobal Dialoq Mərkəzinin və Azərbaycanın Avstriyadakı səfirliyinin birgə təşkilatçılığı ilə baş tutduğu qeyd edilib. Bildirilib ki, nüfuzlu beynəlxalq konfransda Avstriya və dünyanın 30-dan çox ölkəsindən hökumət, parlament üzvləri, beynəlxalq qurumların, qeyri-hökumət təşkilatlarının, iqtisadi dairələrin, dini konfessiyaların təmsilçiləri, eləcə də Vyanada akkreditə olunmuş səfirlik və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Qafqaz Müsəlmanları İdarəsinin sədri, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin baş katibi Şeyxülislam Allahşükür Paşazadənin və Azərbaycan Respublikası Prezidentinin


APA
Konferenz "Von der interreligiösen und gesellschaftsübergreifenden Zusammenarbeit zur menschlichen Solidarität"

ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun rəhbərlik etdikləri Azərbaycan nümayəndə heyətinin tərkibində hökumət və parlament təmsilçiləri, elm və din xadimləri yer alıblar.

Həmçinin qeyd edilib ki, beynəlxalq konfransın təşkili multikulturalizm modelinin təbliğinin bəşəri önəminə diqqət çəkmək, dinlərarası və sivilizasiyalararası dialoq və əməkdaşlığın inkişaf etdirilməsinin müasir dünyanı narahat edən problemlərin aradan qaldırılmasında əhəmiyyətini vurğulamaq məqsədi daşıyır. Avropanın aparıcı dövləti olan və müxtəlif mədəniyyətlərin, dinlərin təmsil olunduğu Avstriyada keçirilən beynəlxalq konfrans qlobal əhəmiyyət kəsb edən bu mövzuya dünya ictimaiyyətinin diqqətini daha da artırmaq, sülhü və əmin-amanlığı təhdid edən amillərə, xüsusilə dinlərarası ixtilaflara qarşı müxtəlif mədəniyyətlərin, sivilizasiyaların və dinlərin nümayəndələrinin birgə mövqeyini nümayiş etdirmək məramına xidmət edir. Tədbirdə Azərbaycan Respublikası Prezidentinin beynəlxalq konfransın iştirakçılarına müraciəti oxunub. Müraciətdə Vyana beynəlxalq konfransında aparılan müzakirələrin və verilən konstruktiv təkliflərin dünyada dinlərarası dialoqun təbliğinə, mədəniyyətlərarası harmoniyanın güclənməsinə, sülhə və qarşılıqlı anlaşmaya töhfələr verəcəyinə əminlik ifadə olunub.

Diqqətə çatdırılıb ki, tədbirdə, həmçinin BMT Baş katibinin müavinləri Migel Angel Moratinos və Rəşid Xalikov çıxış ediblər. Şeyxülislam Allahşükür Paşazadə çıxışında Azərbaycanda milli və bəşəri dəyərlərə, multikulturalizm ənənələrinə böyük önəm verildiyini, müxtəlif mədəniyyətlər və dinlər arasında əməkdaşlığın dövlət səviyyəsində dəstəkləndiyini bildirib. O, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal olunmuş ərazilərimizdə tarixi, mədəni və dini abidələrin məhv edildiyini diqqətə çatdıraraq münaqişənin beynəlxalq hüququn normaları əsasında sülh yolu ilə həllinin vacibliyini, BMT-nin məlum qətnamələrinin yerinə yetirilməsinin və ATƏT-in Minsk qrupunun öz səylərini artırmasının zəruriliyini vurğulayıb. Vyana konfransında Azərbaycanın sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafında rolunu və multikulturalizm dəyərlərini əks etdirən "Bəşəri çağırış" filmi nümayiş etdirilib.

Vurğulanır ki, tədbirin sonunda beynəlxalq konfransın iştirakçıları yekun sənəd - Vyana Bəyannaməsi qəbul ediblər. Sənəddə qeyd olunur ki, müasir dünyada humanist ideyaların təşviqi və multikultural həyat tərzinin təbliği baxımından önəm kəsb edən belə forumların davamlı keçirilməsi olduqca aktual və zəruridir.

# Daxili işlər naziri Qubada vətəndaşların qəbulunu keçirib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri, polis general-leytenantı Vilayət Eyvazov iyunun 22-də Quba Rayon Polis Şöbəsində növbəti qəbul keçirib.

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarının qəbul üçün müraciət edən 22 sakini ilə görüşən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini şəxsən dinləyib, problemlərinin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün nazirliyin aidiyyəti baş idarə və xidmət, həmçinin ərazi polis orqanlarının rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə həllini tapıb. Digərləri də baxılaraq zəruri tədbirlərin görülməsi məqsədilə aidiyyəti qurumlara müvafiq göstərişlər verilməklə icraya yönəldilib.

Qəbulda iştirak edənlər polis general-leytenantı Vilayət Eyvazovu daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edərək yerlərdə vətəndaşlarla dövlət məmurlarının görüşməsi, onların müraciətlərinə, ərizə və şikayətlərinə operativ, həssaslıqla yanaşılması barədə dövlət başçısının məlum tapşırığının yüksək səviyyədə icrasına, problemlərinə hər zaman xüsusi diqqət və qayğı göstərilməsinə görə Azərbaycan Prezidentinə dərin minnətdarlıqlarını bildiriblər. Vətəndaşlar dövlət başçısının respublikamızın tərəqqisinə, iqtisadi dirçəlişinə, beynəlxalq imicinin daha da yüksəldilməsinə yönəlmiş siyasətini bundan sonra da dəstəkləyəcəklərini vurğulayıblar.

# Daxili Qoşunların Ali Hərbi Məktəbinin məzunlarının buraxılışı olub

Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin məzunlarının ikinci buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ali Hərbi Məktəbin döyüş bayrağı sıra meydanına gətirilib. Sonra ümummilli lider Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçmiş hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Nazir müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov təntənəli mərasimdə çıxış edərək Ali Hərbi Məktəbin ikinci buraxılışının Qoşunların həyatında ən əlamətdar günlərdən biri olduğunu bildirib. O deyib ki, milli hərbi kadrların hazırlanması istiqamətində təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev uğurla davam etdirir. Məhz Daxili Qoşunların kadr potensialının daha da gücləndirilməsi məqsədilə dövlət başçısının 2011-ci il 25 fevral tarixli sərəncamı ilə Orta İxtisas Hərbi Məktəbinin bazasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbi yaradılıb.

Qeyd olunub ki, ölkəmizdə aparılan quruculuq işləri və islahatlar Daxili Qoşunların hərbi hissələri ilə bərabər Ali Hərbi Məktəbin də inkişafına təkan verib, müasir tələblərə cavab verən kadr potensialı, zəruri maddi-texniki tədris bazası formalaşdırılıb. Fəaliyyətin müasir standartlara uyğun təşkili məqsədilə hazırda Ali Hərbi Məktəbdə kompüterləşdirilmiş zəruri texniki və əyani vasitələrlə tam təchiz olunmuş auditoriyalar, siniflər, fənn kabinetləri, təlim şəhərcikləri yaradılıb. Gələcəyin zabitlərinin intellektual səviyyəsinin yüksəldilməsində böyük əhəmiyyət kəsb edən kitabxana, xüsusi guşələr və xarici dil mərkəzi fəaliyyət göstərir.

Ali Hərbi Məktəbin yaradılmasında və sonrakı fəaliyyətində Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Jandarm Komandanlığının zabit heyətinin böyük əməyi olub. Hazırda qardaş ölkənin təcrübəli zabitlərindən ibarət pedaqoji heyət yüksəkixtisaslı zabit kadrların hazırlanmasında fəal iştirak edir və əminliklə demək olar ki, bu təhsil müəssisəsi inkişaf etmiş dövlətlərin analoji təhsil ocaqları ilə rəqabət aparacaq səviyyədədir.

Daxili Qoşunlar üçün yüksəkixtisaslı kadrların hazırlanmasında danılmaz roluna, təmənnasız yardımlarına görə Jandarma Qüvvələri Baş Komandanlığına, hərbi mütəxəssislərinə, o cümlədən təntənəli mərasimdə iştirak edən ölkənin Jandarm və Sahil Təhlükəsizlik Akademiyasının rəisi, general-leytenant Hüseyin Kurtoğluna təşəkkürünü bildirən nazir müavini Ş.Məmmədov əməkdaşlığın bundan sonra da yüksək səviyyədə davam və inkişaf etdiriləcəyini bildirib.

Məzunların həyatında yeni bir dövrün başlandığını nəzərə çatdıran general-leytenant Şahin Məmmədov onları əlamətdar hadisə münasibətilə təbrik edib, bu təhsil ocağında komandir peşəsinə yiyələnməklə gənc zabitlərin liderlik, cəsurluq, fədakarlıq, dürüstlük kimi keyfiyyətlər qazandıqlarını, peşələrini sevən, müasir düşüncəyə sahib zabitlər kimi formalaşdıqlarını xatırladaraq onların artıq hazırlıqlı və peşəkar hərbçilər kimi Daxili Qoşunların sıralarında xidmətlərini uğurla davam etdirəcəklərinə, Qoşunların döyüş ənənələrinə sadiq qalacaqlarına əminliyini bildirib.

Daha sonra Ali Hərbi Məktəbi əla qiymətlərlə bitirmiş iki məzuna - Rafiq Mikayılova və Vaqif Abadova fərqlənmə diplomları və "leytenant" hərbi rütbələrinin paqonları təqdim edilib.

Gənc zabit R.Mikayılov "Yaş kötüyü"nə rəmzi xatirə lövhəsini vurub.

Döyüş bayrağı üçüncü kursun kursantlarına təhvil verilib. Ali Hərbi Məktəbin marşı ifa edilib.

Sonda şəxsi heyət təntənəli marşla tribunanın qarşısından keçib.



# Azərbaycan idmançıları "Minsk 2019"un ikinci günündə 1 gümüş və 3 bürünc medal qazanıblar








İyunun 22-də - Minskdə keçirilən II Avropa Oyunlarının ikinci günündə atletlər idmanın 11 növü üzrə - basketbol 3x3, akrobatika gimnastikası, oxatma, boks, şose velosipedi, cüdo, bədii gimnastika, sambo, tüfəngdən və tapançadan atəşaçma, stend atıcılığı və masaüstü tennis yarışlarında mübarizə aparıblar. İdmanın yeddi növündə 24 dəst medalın sahibləri müəyyənləşib.

AZƏRTAC xəbər verir ki, Oyunların ikinci günündə Azərbaycan idmançıları boks, cüdo, sambo, akrobatika gimnastikası, tapançadan atəşaçma və stend atıcılığı yarışlarında mübarizəyə qoşulublar.

"Minsk 2019"da Azərbaycan milli komandasının aktivinə ilk medalı akrobatika gimnastlarımız yazdırıblar. Dinamik hərəkətlər üzrə qarışıq cütlüklərin yarışında 28,830 xal toplayan Ruhidil Qurbanlı və Abdulla Əl-Məşayxi gümüş medala sahib olublar. Balans hərəkətləri üzrə qarışıq cütlüklərin yarışında isə Ruhidil Qurbanlı - Abdulla Əl-Məşayxi cütlüyü 28,160 xalla bürünc medala layiq görülüb.

II Avropa Oyunlarının sambo yarışlarının birinci günündə Azərbaycanın dörd idmançısı mübarizəyə qoşulub. Samboçularımız günü iki bürünc medalla başa vurublar. Bürünc medalları komandamızın aktivinə Mehman Xəlilov (57 kq) və Emil Həsənov (68 kq) yazdırıblar. Mehman Xəlilov dörddəbir finalda belaruslu Vladislav Burdza uduzub. Lakin bu çəki dərəcəsində yeddi samboçunun mübarizə aparması idmançımıza təsəlliverici qarşılaşmaya qatılmadan bürünc medal uğrunda görüşdə iştirakına imkanı yaradıb. O, bürünc medal uğrunda görüşdə Ermənistan samboçusu Maksim Manukyanı 9:1 hesabı ilə məğlubiyyətə uğradıb.

Dörddəbir finalda rumıniyalı Laslo Jolt-Sokeyə qalib gələn E.Həsənov isə yarımfinalda gürcüstanlı Mindia Liluaşviliyə məğlub olub. Samboçumuz bürünc medal uğrunda qarşılaşmada Bolqarıstan təmsilçisi Martin İvanova qalib gəlib.

Digər samboçularımızdan Ceyhun Hüseynov (82 kq) və Gözəl Zutova (72 kq) dörddəbir finalda uduzublar. Hər iki samboçumuz təsəlliverici görüşlərdə medal şansı uğrunda yarışsalar da, uduzaraq mübarizəni dayandırıblar. Yığma komandamızın digər üzvləri - Ağasif Səmədov (52 kq), Cavidan Qarayev (62 kq) və Abdulla Abdullayev (74 kq) iyunun 23-də mübarizəyə qoşulacaqlar.

"Minsk 2019"un ikinci günündə Azərbaycanın 7 cüdoçusu mübarizə aparıb. Qadınların yarışında Gültac Məmmədəliyeva (52 kq) ilk görüşdə - otuzikidəbir finalda finlandiyalı Katri Kakkonu, səkkizdəbir finalda belçikalı Çarlin Van Sniki məğlub etsə də, növbəti mərhələdə polşalı Aqata Perensə uduzub. Cüdoçumuz təsəlliverici döyüşdə də ümidləri doğruldа bilməyib. O, bürünc medal uğrunda mübarizədə italiyalı Odette Qluffridaya məğlub olub.

Cüdo yığmamızın digər altı üzvü Aişə Qurbanlı (48 kq), Larisa-Aleksandra Florian (52 kq), İçinxorloo Munxtsedev (57 kq), Orxan Səfərov, Kəramət Hüseynov (hər ikisi 60 kq) və Nicat Şıxəlizadə (66 kq) də yarışın birinci günündə uduzaraq mübarizəni dayandırıblar.

Boks yarışlarında onaltıdabir final mərhələsindən mübarizəyə qoşulan dörd idmançımızın hamısı ilk görüşdə qələbə qazanıb. Cavid Çələbiyev (60 kq) Bosniya və Herseqovina təmsilçisi Nikola İvkoviç, Lorenzo Sotomayor (69 kq) ermənistanlı Qurqen Madoyan, Kamran Şahsuvarlı (75 kq) gürcüstanlı Giorgi Harabadze, Loren Alfonso Dominqes (81 kq) isə ukraynalı Stepan Hrekulu məğlub edərək səkkizdəbir finala yüksəliblər. Xatırladaq ki, Oyunların birinci günündə boksçularımızdan Tayfur Əliyev (56 kq) səkkizdəbir finala vəsiqə qazanıb.

"Minsk 2019"da 10 metr məsafəyə tapança ilə atəşaçma üzrə qarışıq komanda yarışının təsnifat mərhələsində Nigar Rəsulova - Ruslan Lunyov dueti 566 xalla 19-cu olub. Kişilər arasında stend atıcılığı yarışında isə Əli Hüseynli 68 xalla 20-ci olub. Bu nəticə təmsilçilərimizin final mərhələsinə adlamalarına kifayət etməyib.

Beləliklə, Oyunların ikinci günündə Azərbaycan idmançıları dörd - 1 gümüş, üç bürünc medal qazanıblar. Komandamız medal sayına görə 10-cu pillədə qərarlaşıb. Ümumilikdə 20 ölkənin idmançıları medal qazanıblar. İlk üç pillədə Rusiya (9-5-4), Belarus (4-2-8) və Gürcüstan (3-3-4) qərarlaşıblar.

"Minsk 2019"a iyunun 30-da yekun vurulacaq.



# Mən bu cahana sığmazam...

## 2019-cu il "Nəsimi ili"dir...

**Klassik irsimiz**




### *Mən mülki-cahan, cahan mənəm, mən!*

Mən mülki-cahan, cahan mənəm, mən!
Mən həqqə məkan, məkan mənəm, mən!

Mən ərş ilə fərşü kafü nunam,
Mən şərhü bəyan, bəyan mənəm, mən!

Mən kövnü məkanü kün-fəkanam,
Bilgil ki, nişan, nişan mənəm, mən!

Mən surəti-mənidə həqəm həq,
Mən həqqi-əyan, əyan mənəm, mən!

Bir gövhərəmü qədim əzəldən,
Ey gövhəri-kan, kan mənəm, mən!

Mən atəşi-nuri-eşqi-həqqəm,
Musaya zəban, zəban mənəm, mən!

Mən cümlə cahanü kainatam,
Mən dəhrü zaman, zaman mənəm, mən!

Mən ayəti-müshəfü kitabam,
Ey nöqtədəhan, dəhan mənəm, mən!

Mən qövs ilə həm kamanü tirəm,
Ey tirü kaman, kaman mənəm, mən!

Cəmşidi-zamani-aləm oldum,
Cəmşidi-zaman, zaman mənəm, mən!

Mən nəqşü xəyalü xəttü xalam,
Mən hərfü lisan, lisan mənəm, mən!

Mən gənci-nihani, küntə kənzəm,
Mən gənci-nihan, nihan mənəm, mən!

Mən zatü sifati-kün-fəkanam,
Mən ruh ilə can, can mənəm, mən!

Mən kafirə mövt, müsibət oldum,
Möminə iman, iman mənəm, mən!

Mən cənnətü abi-kövsər oldum,
Ey səhni-cinan, cinan mənəm, mən!

Mən bəhri-mühitü həm giranam,
Ey bəhri-giran, giran mənəm, mən!

Mən sirrəmü tövhidəm, hədisəm,
Həm qeybü güman, güman mənəm, mən!

İnsanü bəşərsən, ey Nəsimi,
Həqq der ki, haman, haman mənəm, mən!

### *Mən ki dərvişəm, fəqirəm, padişahi-aləməm*

Mən ki dərvişəm, fəqirəm, padişahi-aləməm,
Ruhi-birəngəm, əgərçi rəngə girdim, adəməm.

Şeş cəhətdən çar ənasirdir məni faş eyləyən,
Yoxsa mən gəncineyi-vəhdətdə nuri-əbhəməm.

Aləmül-qeybin süfatı məndən oldu aşikar,
Ey bəsirətsiz, məni gör kim, nə zati-əzəməm.

Söyləyən həqdir mənim dilimdə hərdəm, yoxsa mən,
Çar ənasirdən mürəkkəb bilisanü əbkəməm.

Ümmühat ilən nə var abaya olmasa xələl,
Aləmi təhqiqə baxsan, cümləsindən əqdəməm.

Cənnəti-firdövs üçün bir ləhzə qəmgin olmazam,
Talibi-didari-yaram, şadimanam, xürrəməm.

Ey Nəsimi, çünki iş təqdir əlindən işlənir,
Fariğəm dünyadavü üqbada qəmdən, biqəməm.

### *Gəlmişəm həqdən ənəlhəq, gör nə Mənsur olmuşam*

Gəlmişəm həqdən ənəlhəq, gör nə Mənsur olmuşam,
Ruhi-qüdsün nitqiyəm, sər ta qədəm nur olmuşam.

Lövhi-məhfuzu mənəm, ruhül-əminin həmdəmi,
Həşr üçün mizanü İsrafilü həm sur olmuşam.

Bavücudam vəhdəti kəsrətdə isbat eyləyim,
Musayam anəstünara, nur ilə Tur olmuşam.

Gərçi qaibdir vücudum hər nəzərdən daima,
Gör nə nazir, gör nə mənzər, gör nə mənzur olmuşam.

Laməkanın gənciyəm, gərçi yerim viranədir,
Eylərəm məmur anı, gör kim, nə məmur olmuşam.

Surətü məni mənəm, həm ism ilə, həm cismü can,
Gör necə məni ilən surətdə məstur olmuşam.

Şöhrət afətdir, usandım şöhrətindən aləmin,
Gərçi həm əladavü əfsəldə məşhur olmuşam.

Atəşi-mehri-rüxün canımda təsir eylədi,
Mən bu oddan yanıram, yəni ki, məhrur olmuşam.

Misr camedir vücudum, anda qıldım cüməyi,
Gör nə şəhrəm, gör nə möhkəm qələvü sur olmuşam.

Zakirəm, zikr eylərəm, yəni ki, şeyxəm, sufiyəm,
Gör nə göyçək ad ilə aləmdə məzkur olmuşam.

Ey Nəsimi, cənnətü hur ol nigarın vəslidir,
Çün mən ol məhbubu buldum, cənnətü hur olmuşam.

### *Aşiqəm hüsnünə, eşqin ehtimalı məndədir*

Aşiqəm hüsnünə, eşqin ehtimalı məndədir,
Aqiləm, əmmarə nəfsin guşmalı məndədir.

Ta səmumun narına yandırmışam şeytanı mən,
Zill min yəhmumi-əshabun şimalı məndədir.

Fəzli-həqdən çünki mən əhləl-yəqini-cənnətəm,
Ta nəim firdövsi-məskunun sülalı məndədir.

Sidreyi-məhzur içində təlhi-mənzud uş mənəm,
Şol çəkilmiş zilli-məmdudun zilalı məndədir.

Çinü Maçinü Həbəş rüxsareyi-Rum üstünə,
Basmış zəngi saçın xeyli-xəyalı məndədir.

Sormuşam ləlində cənnət irmağı ləzzatını,
Şəkkərin abü şərabı, şirü balı məndədir.

Məndən iç cami-müsəffa, saqiyi-şafi mənəm,
Eyni-hövzün, kövsərin abi-zülalı məndədir.

Vacibül-mümkün, vücudu biərəz cövhər mənəm,
Şəhpəri-zati-süfatın bimisalı məndədir.

Saili-eşqəm, gərəkdir cümlədən şafi cavab,
Sirri-xəttin həm cavabı, həm sualı məndədir.

Müshəfi üzündən açdı çünki zülfün, kirpigin,
Barəkallah, ol kəlamüllah falı məndədir.

Maziyü müstəqbəli bu eşqə təbdil etmişəm,
Bu dəmi arif bilir kim, eşq halı məndədir.

Baxmazam ənqayi-Qafa, qürbəti-lahuta mən,
Seyr ilə simurği-eşqəm, pərrü balı məndədir.

Ol nigari-nazənin siminbərü nəsrinbədən
Sərv qəddi, gül üzarı, xəttü xalı məndədir.

Əhli-irfanam, bilirəm xəlqi mən sima ilən,
İttisali-həqqü batil infisalı məndədir.

Çün Nəsimi adəmi bildi ilahın məzhəri,
Üştə rövşən məzhərin mədlul dalı məndədir.

### *İki aləm anındır kim, gözünə həq əyan oldu*

İki aləm anındır kim, gözünə həq əyan oldu,
Həqi gördü, həqi bildi, həqi kim, bigüman oldu.

Əgər Musa kimi gəlmək, təcəlli görmək istərsən,
Nəzər qıl üzünə gör kim, iki aləm əyan oldu.

Təaləllah, nə zibasan ki, hüsnün dövri-bağında
Qaşınla kirpigin, zülfün üzündə gülsitan oldu.

Qiyamət qopdu hüsnündən, yedi iqlimə yayıldı,
Sənin qəddü qiyamından məgər axırzaman oldu?

Çəlipa zülfü xalından saçın leylidürür, amma
İrişdi ayəti-fanzur adı nurü düxan oldu.

Nigarın ləlinə hərdəm tökər şəhd üstünə şəkkər,
Vəli qafil nə bilsin kim, nədən şirin dəhan oldu.

Məkana sığmadı zatım, əzəldəndir bədayatım,
Nəsiminin bu mənidən məkanı laməkan oldu.

Azərbaycan xalqının zəngin ictimai-siyasi, ədəbi-fəlsəfi irsində xüsusi rol oynayan, elm və mədəniyyətin inkişaf etdiyi Şirvan mühitində böyüyüb böya-başa çatan görkəmli mütəfəkkir İmadəddin Nəsimi müasirləri, ya ondan əvvəlki sələfləri kimi, ehtiyatlı, tədbirli, hər sözün xeyir və zərərini ölçüb-biçərək dilə gətirən və yazan, dövrün tələb və şəraiti ilə hesablaşan adi şair olmamışdır.

# Həqiqət fəlsəfəsi

O öz coşqun və qaynar yaradıcılığı, dərin fəlsəfi fikirləri, üsyankar ruhu ilə poeziyanın və fəlsəfi fikrin ozamankı sərhədlərini aşaraq dastan və rəvayətlərdən, qurama hekayələrdən imtina edib, dövrünün ictimai-siyasi proseslərinə, insanların zehniyyətinə yerləşmiş dini inanc və təlimlərə, bərqərar olmuş adət və ənənələrə tamamilə yeni baxış və yanaşma ilə insanı, məhz insanı hər şeydən uca tutmuş, ömrünün sonunadək bu ideyasına sadiq qalmışdır. Onun yaratdığı insan obrazı, görmək istədiyi bu uca varlıq Yaradanın bənzəridir, onun varlığının təcəssümüdür, onun real həyatda təcəllisidir. Şeirlərində Nəsimi kamil insandan bəhs edir, sufilərin şəriət, təriqət, mərifət yolunu keçib həqiqətə yetişən insandan söz açır, onu uca Yaradanla eyniləşdirir:

*Səni bu hüsni cəmal ilə,*
*kəmal ilə görüb,*
*Qorxdular həqq deməyə,*
*döndülər insan dedilər.*

Nəsimi sadəcə yüksək fəlsəfi-poetik təfəkkürə malik şair deyildi, o, sözün əsl mənasında dini xurafata, fürsətcil ruhaniliyə, ədalətsiz hakimiyyət və idarəçiliyə, azad düşüncə və ifadənin qarşısını alanlara üsyan edən qiyamçı bir şair idi.

O, çox böyük bir coğrafi məkanda - Azərbaycanda, Anadoluda, İranda, Suriyada məqsədyönlü şəkildə gəzib-dolaşaraq öz ictimai-fəlsəfi baxışlarını xalq içində özü də təbliğ edirdi. Onu tanıyırdılar, sevirdilər, ardıcılları minlərlə idi, onun təlimini cəsarətlə və sevərək yayırdılar, yaşadırdılar.

Nəsiminin şəxsiyyəti ilə dünyagörüşü vəhdət təşkil edirdi. Sufi fəlsəfəsinin kamillik dərsini keçmiş şair özü şeirlərində vəsf etdiyi "kamil insan" zirvəsindədir. Bu insan elə onun özünün yüksək məqama yüksəlmiş şəxsiyyətidir. Akademik İsa Həbibbəyli yazır: "İnsanın qüdrətini tərənnüm edən Nəsiminin poeziyasında mübarizə ruhu vardır. O, üsyankar şeirləri ilə kamil insan olmaq uğrunda mübarizə aparmışdır. Şairin fikrincə, kamil insan ədalətli cəmiyyət yaratmağın əsasıdır, ilahi varlıq səviyyəsinə yüksələn böyük mənəvi sərvətdir. Ona görə də Nəsimi yaradıcılığında ilhamla vəsf olunan kamil insan obrazı orta əsr Azərbaycan şeirində ən yüksək zirvəni fəth etmiş insan heykəlidir".

Bəs Nəsimi şeirlərinin fəlsəfi fikirlərinin cazibədarlığı və insanların diqqətini çəkməsinin səbəbləri nə idi? Bunun üçün Nəsimi fəlsəfəsinə qısa nəzər salmaq lazımdır. Əvvəla, bu fəlsəfə özözünə, ya qeybdən yaranmamışdı. Azərbaycan xalqına xas uzun tarixi dövr ərzində təşəkkül tapmış fəlsəfi fikrin zəminində ərsəyə gəlmişdi. Bizim eradan əvvəl II-I minilliklərdə Azərbaycan ərazisindəki dövlət quruluşlarında, sonra Atropatena və Albaniyada geniş yayılmış xalq təfəkküründən, həyat tərzindən, dövrün mənəvi tələbatından doğan dini inanclar, ictimai-siyasi təlimlər, xüsusilə də çox böyük bir bölgədə təsir dairəsinə malik olan zərdüştilik, manixeyçilik, məzdəkilik, bunların əsrlər boyunca insanların təfəkküründə saldığı izlər, bu təlimlərin sosial-etik-siyasi tələbləri, eyni zamanda, ən qədim zamanlardan nəsildən-nəslə ötürülən ənənəvi türk inancları, təktanrıçılıq islamaqədərki dövrdə insanların ictimai görüşlərinin formalaşmasına öz təsirini göstərmişdi. Xüsusilə də Nəsimiyəqədərki yeddi əsrlik ziddiyyətli İslamiyyət dövrü. Ərəb xilafətinin siyasi və dini hakimiyyəti də həmin qədim çağların yadigarı olan ənənə və baxışları tamamilə aradan qaldıra bilməmişdi. Yeri gəlmişkən, Nəsimi dövründən yeddi əsr keçməsinə baxmayaraq, həmin əski çağlardan qalan bəzi inanclarımız islamla yanaşı indi də yaşamaqdadır, çünki qədim türk ruhu, yaxud dünyanın varlığını xeyirlə şərin mübarizəsində izah edən zərdüştilik, Azərbaycanda ən qədim zamanlardan üzü bəri yaşayan və bu vətənin aborigenləri olan hər bir azərbaycanlının genetik yaddaşında oturub. Biz indi buna tam adiləşmiş, bir çulğaşma kimi baxsaq da, bununla belə Nəsimi zamanında islam dininin ozamankı rəsmi yozumundan kənara çıxan hər bir addım, söz və hərəkət küfr sayılıb təqib edilirdi.

Nəsiminin fəlsəfi görüşlərinin formalaşması, heç şübhəsiz ki, onun İslamiyyət dövründə yaranan, xüsusən də Azərbaycan mütəfəkkirləri tərəfindən irəli sürülən fəlsəfi fikirlərin təsiri ilə baş vermişdir. Onu qeyd etmək lazımdır ki, islamın gəlişi və Qurani-Kərimin ehkamları ilə yanaşı, islama müxtəlif yanaşmalar və münasibətlər də meydana çıxır, etnik və ənənəvi qaydalardan, həyat tərzindən qaynaqlanan şərhlər və izahlar da əmələ gəlirdi. Belə bir şəraitdə fəlsəfi fikir islam ilahiyyatçılığı ilə qarşılıqlı əlaqədə, ayrılmaz bir şəkildə formalaşırdı. Artıq X-XIV əslərdə Azərbaycanın türk əsilli, ərəb və farsdilli ilahiyyatçı filosofları var idi və onlar bütün müsəlman Şərqində tanınırdılar: Əbubəkr Əhməd İbn Harun Bərdəyi (X ə.), Məkki İbn Əhməd Bərdəyi, Musa ibn İmran Səlmasi (X ə.), Süleyman Təbrizi (X ə.). Məkki Bərdəyinin "Əl-əsma əl-Mufrada" əsəri ən mötəbər və qəbuledilən ilahiyyat traktatlarından biri hesab edilirdi. Qeyd edilməlidir ki, hələ VIII-IX əsrlərdə islamiyyətin tam oturuşub bərqərar olmadığı dövrlərdən etibarən islam ehkamları ilə uzlaşmayan müxtəlif təlimlər də yaranırdı. Ağlı, elmi, fəlsəfəni dini inanca, etiqada qarşı qoyub, insanın ağlın gücü ilə Allaha yetişə biləcəyini ortaya atan mötəzilik təlimi meydana çıxmışdı. Azadfikirliliyə və rasional düşüncəyə əsaslanan bu cərəyan Azərbaycanda da öz tərəfdarlarına malik idi. IX əsr ərəb tarixçisi Əl-Yəqubi Azərbaycanda mötəzililərlə mötədil islamçılar arasında gedən amansız mübarizədən yazmışdı. Azərbaycanın tanınmış filosoflarından Əbubəkr Məhəmməd ibn Abdulla Bərdəyi, Əbusəid Əhməd Bərdəyi də bu fikir cərəyanlarında iştirak edirdilər.

Həmin əsrlərdə mistikyönlü cərəyanlar meydana çıxırdı. Rasionalizm və mistikanı özündə uzlaşdıran batiniyyə cərəyanı yaranmışdı. İsmaililik və sufilik də bu dövrdə formalaşırdı. Şiəliyin içində yaranan, onda bir cərəyan kimi şəkillənən ismailizm az sonra onun və ümumiyyətlə, islamın bəzi müddəalarına qarşı çıxırdı. Allahı İlk Səbəb, Yaradan kimi qəbul edən, lakin onun yaradıcı missiyasından sonra heç nəyin onun iradəsindən asılı olmadığını əsas gətirən panteistlər ağlın, elmin gücünə inanırdılar və ölkəmizdə də bu cərəyanın kifayət qədər tərəfdarı var idi. Eyni zamanda, dövrün ən məşhur sufiləri Bəyazit Bistani və Mənsur Həllacın təlimi burada geniş yayılmışdı. Tarixi mənbələrdə Mənsur Həllacın Azərbaycanda, Reydə və Təbəristanda qərmətilər (ismaililər) hərəkatına başçılıq etməsi barədə məlumatlar vardır.

Azərbaycanda Nəsimiyəqədərki dövr sufizminin ən tanınmış nümayəndəsi Baba Kuhi Bakuvi (933-1050) olmuşdur. Baba Kuhi Bakuvi sufi təriqətinin başçısı olaraq, həm nəzəri, həm də əməli fəaliyyəti ilə, xüsusilə İslam Şərqinin ən böyük sufisi Mənsur Həllaca həsr etdiyi "Əxbar əl-arifin" və "Əxbar əl-qafilin" traktatları ilə Azərbaycan fəlsəfi irsini zənginləşdirmişdi. Onun qardaşı Pir Hüseyn Şirvani də sufizmin fəal ardıcıllarından olmuşdur. O zamanlar Azərbaycanın görkəmli filosofu Şihabəddin Yəhya Sührəvərdinin (1145-1234) fəlsəfəsinin nuru bütün Şərqə yayılmışdı. Onun adı ilə yeni şəraitdə sufizmin inkişafının mühüm istiqaməti bağlıdır. O, Allahı dərk etmək yolunu insanın özünüdərki və özünütəkmilləşdirməsi ilə əlaqələndirir, ağlın gücünə, elmə xüsusi önəm verirdi. 922-ci ildə Bağdadda edam edilən Mənsur Həllacın "Ənəlhəq" kəlamını dini cəhətdən yozaraq, onu heç də küfr hesab etmirdi.

Ümumiyyətlə, XI-XIII əsrlərdə Bağdadda və Şərqin digər elmi hövzələrində yüksək dini-fəlsəfi-hüquqi təhsil almış dövrün tanınmış filosofları, ilahiyyatçıları arasında Azərbaycan mütəfəkkirləri də çox idi. Bunların bir sırası barədə Yaqut Həməvinin "Mucəm əl-Buldan" əsərində verdiyi siyahıdan məlumatlar əldə etmək olur. Bu dövrün görkəmli alimləri sırasında özündənsonrakı nəslin dünyagörüşünə, peşəkar fəlsəfə, hüquq, ilahiyyat elmlərinə öz töhfəsini verən Əbülhəsən Bəhmənyar, Eynəlqüzat Miyanəci, Şihabəddin Sührəvərdi kimi alimlər yetişmişdi. Ustadı İbn Sinanın təlimini davam və inkişaf etdirən böyük ensiklopedik alim, peşəkar filosof Bəhmənyar "Ət-Təhsil" əsərində Şərq peripatetizminin bütün sonrakı inkişafına təkan vermişdi. XI-XII əsrlərdə Əbülüla Gəncəvinin, Xətib Təbrizinin, Xaqani Şirvaninin, Qətran Təbrizinin, Fələki Şirvaninin, Nizami Gəncəvinin, Mücirəddin Beyləqaninin, Yusif Xoylunun, Məhsəti Gəncəvinin əsərləri azadfikirlilik, sosial ədalət, insan azadlığı uğrunda mübarizə aparan təlimlər və fəlsəfi görüşlər üçün zəngin zəmin hazırlamışdı.

Orta əsr Azərbaycanının bu zəngin dini-fəlsəfi və mənəvi-etik mühitində azadfikirlilik nə qədər təqiblərə məruz qalsa da, çağlayan bir çeşmə kimi özünə yol açıb təzahür edirdi. Xalqımızın çox uzaq keçmişindən, azad türk ruhundan sərçeşmə götürən, "Kitabi-Dədə Qorqud"da dastanlaşan, qayaüstü yazılar kimi xalqımızın mənəvi yaddaşına həkk olunan azadlıq hisləri, azadfikirlilik və insanı hər şeydən üstün tutmağı təlqin edən görüşlər Nəsimi yaradıcılığında, onun çoxcəhətli fəaliyyətində, poeziyasının təsir gücündə daha qabarıq üzə çıxdı. Əsərlərini əsasən ərəb və fars dillərində yazan əksər mütəfəkkirlərimizdən fərqli olaraq, Nəsiminin elmə, irfana, məntiqə, fəlsəfəyə, ilahiyyata, sufizmə, hürufilik təliminə və dövrünün digər ictimai-siyasi mədəni məsələlərinə dair doğma Azərbaycan türkcəsində yazdığı və təbliğ etdiyi əsərlər, çıxışlar, mükalimə və mübahisələr, şərhlər və çağırışlar müxtəlif qəbildən olan insanların qəlbinə və zehninə daha asan yol tapır, könüllərə hakim olur, bir məktəb formalaşdırırdı.

* * *

1369-cu ildə Azərbaycanın tarixi Şirvan torpağında doğulan, bütün varlığı ilə vətəni Azərbaycana bağlı olan Nəsimi hələ gənc yaşlarından hürufi təlimi ilə maraqlanırdı. Bu təlimin yaradıcısı və rəhbəri Fəzlullah Nəimini öz ustadı kimi çox sevir, onun yaradıcılığının təsir qüvvəsini öz üzərində hiss edirdi. Nəsiminin fəlsəfi görüşlərinin formalaşmasında mürşidi Nəiminin şəxsiyyəti, təlimi, "Cavidannamə" və s. əsərləri ilə yanaşı, onun hürufilərlə tanışlığı, bu hərəkatın içində olmasının həlledici rolu olmuşdur. Bu elə bir tarixi dövr idi ki, ərəb xilafətinin və türklərin (Qəznəvilərin, Səlcuqların) hakimiyyəti başa çatmış, böyük bir region, o cümlədən bütün Azərbaycan, İran, Anadolu monqol istilasına düşərək ağlagəlməz dağıntı və işgəncələrə məruz qalmış, sonra isə Əmir Teymurun sərt qayda-qanunlarla müşayiət olunan hakimiyyəti bu torpaqlarda bərqərar olmuşdu. Belə bir şəraitdə hürufilik islam içərisində daha mütərəqqi, xalqın arzularından və ənənəvi Şərq müdrikliyindən qaynaqlanan sufilik təliminin fəlsəfi-ictimai təzahürlərindən biri kimi meydana gəlmişdi. Bu təlimdə mənəvi-dini dəyişikliklərlə bərabər geniş ictimai tələblər də irəli sürülürdü.

Nəsiminin fəlsəfi görüşlərinin formalaşmasında mürşidi Fəzlullah Nəiminin xüsusi yeri vardır. "Fəzl həqdir, Fəzl-e Həqq memarımız" deyən şair ömrünün çox hissəsini hürufiliyin təbliğinə həsr etmiş, həmişə harda olsa da, xalqın içərisində öz qəzəlləri ilə dövrün dini qanunları ilə əsla uzlaşmayan, lakin xalqın sevə-sevə dinlədiyi görüşlərini yaymaqdan çəkinməmişdir. Hətta həbs olunub zindana salınsa da, ideyalarından əl çəkməmişdir.

Həqiqətən də hürufilik Yaradan və yaradılanın, maddi və mənəvi aləmin sirlərinin və qarşılıqlı əlaqələrinin şərhində simvollaşdırılan hərflər və rəqəmlərdən istifadə üsuluna müraciət etsə də, bu fəlsəfənin əsasını "vəhdəti-vücud" təşkil edir. Bu təlimə görə, əzəli və ilkin qüvvə Vücudi-Mütləqdir, Yaradanın Özüdür. Qalan bütün mövcudat mümkünül-vücuddur və Yaradanın iradəsinə bağlıdır, onunla izah oluna bilər. Hürufilər dünyanın, yaradılışın əsasında hərfləri görürdülər, ərəb əlifbasının 28, fars əlifbasının 32 hərfini ilahiləşdirərək hərflərdə İlahi Yaradıcının simasını təsəvvür edirdilər.

Nəsiminin fəlsəfi irsinin tədqiqatçılarının haqlı olaraq qeyd etdikləri kimi, zamanın çağırışlarına Nəsiminin cavabı onun həmin dövrün əxlaqi, mənəvi, fəlsəfi təcrübələrinin dərin və qlobal ümumiləşdirilməsinin əks olunduğu şeirlərində təzahür edirdi. Azərbaycan ədəbiyyatı, incəsənəti və mədəniyyətinə dair dəyərli əsərlərin müəllifi olan xalq yazıçısı Anarın yazdığı kimi, monqolların, Əmir Teymurun, Toxtamışın müharibə və talanlarına məruz qalmış nəhəng bir coğrafiyada insan həyatının bir at qədər dəyərli olmadığı zamanda Nəsimi insanı ucaldır, onun şəxsiyyətini göylərə qaldırır, insanın şərəfinə qızğın himn yaradır, insanda Allahın sifətini, təcəllisini görürdü.

Nəsimi şəxsiyyətinin böyüklüyü, dünyagörüşünün genişliyi və əhatəliliyi ilə dövrün dini-fəlsəfi cərəyanlarının cızdığı çərçivələri aşıb, onlardan çox-çox yuxarıda dururdu, sufilikdən, o cümlədən hürufilikdən də yüksəkdə yer alırdı. O öz poeziyasında dünyanın, həyatın, insanın, təbiətin mövcudiyyətini şərtləndirən səbəbləri araşdırır, suallar qoyur, öz suallarına cavablar axtarır və çox zaman özü də bu suallara cavab verir. Bütün sualların cavabını o, vəsf edərək Yaradana bərabər tutduğu insanda axtarırdı. "Həqq mənəm, həqq məndədir, ənəlhəqq söylərəm" deməklə Nəsimi Mənsur Həllacı da öz dərin fəlsəfi lirikası və cəsur çıxışları ilə ucaldır, yaşadırdı. Necə ki, özü də edamından sonra bütün Şərqdə sanki yenidən doğulur, haqq aşiqi kimi, həqqin özü kimi şəhid-filosof, mübariz əzabkeş, dönməz əqidə qəhrəmanı kimi hürufiliyin, bütövlükdə sufiliyin sonrakı inkişafını şərtləndirir.

Nəsiminin fəlsəfəsində aparıcı istiqamət sufizmdir. Hürufiliyə sufizmdən gəldiyinə görə onun qəbul etdiyi, təlqin və təbliğ etdiyi ideyalar da sufizmdən gəlirdi. Dünyanın varlığını, məkanın və zamanın bütöv birliyini - vəhdət-e vücudu şərh edən şair Allaha gedən yolun da sözdən və məhəbbətdən keçdiyini bəyan edirdi.

Nəsimi sufiliyin bütün çalarlarını incələmiş, ərəb və farsdilli sufi fikir sahiblərinin irsini mənimsəmiş, arif və aşiq adlandırdığı bu insanları dəyərləndirmis və özü də dövrünün, yəqin ki, ən böyük sufisi, Həllacı olmuşdur. Bu geniş yayılmış təriqətin (Allaha qovuşmaq, Onu dərk etmək yolu), xüsusilə də onun bir qolu kimi meydana çıxmış hürufiliyin təsiri ilə Nəsimi insanın Allahla vəhdətini, həmçinin maddi və mənəvi dünyanın Yaradanla bağlılığını vəsf edir. Onun şeirlərində ilahi məhəbbət aparıcı yer tutur, lakin Nəsimi bir incə ruhlu şair olaraq insanın dünyəvi məhəbbətinə də üstünlük verir, insanı bəzi hallarda allahlaşdırdığı kimi, onun eşqini də ilahiləşdirirdi. Eyni zamanda, canlı, təbii insani eşqi də səmimi hislərlə ifadə edirdi:

*Düşdü yenə dəli könül*
*gözlərinin xəyalinə,*
*Kim nə bilir bu könlümün*
*fikri nədir, xəyali nə?*

Nəsiminin tərənnüm etdiyi insan, onun eşqi, Yaradana və dünyaya münasibəti bütün din və təriqətlərdən ucada durur. O, bütün haqsızlıqların, ədalətsizliklərin, qeyri-insani əməllərin qarşısında durur, din və məzhəb ixtilaflarının əleyhinədir, bir sıra şəriət ehkamlarını, ibadət mərasimlərini, axirətlə bağlı deyilənləri, hər cür mövhumat və xurafatı, tərkidünyalığı qəbul etmir, dinlər və imanlar arasında fərq qoymur.

* * *

Nəsiminin fars dilində "Divan"ı və ərəbcə yazdığı bir çox şeirləri onun fəlsəfəsinin ümumtürk coğrafiyasının hüdudlarından kənarda da geniş yayılmasını təmin edir, xalq kütlələri tərəfindən incə ruhlu və dərin mənalı əsərlər yaradan şair kimi sevilsə də, hakim siyasi dini dairələr onu inkar edir, yaradıcılığını küfr adlandırıb dinə zidd olduğunu təlqin edirdilər. Bu cür ittihamlar da Nəsimini məşhurlaşdırır və müxtəlif ölkələrdə onun çoxsaylı ardıcıllarının meydana çıxmasına zəmin yaradırdı. Nəsimi həm bir şair, həm də mütəfəkkir olaraq poeziyasında olduğu kimi, şəxsiyyətində də hakim ideologiyaya, zamanın və hakim dinin sərt qaydalarına, riyakar ruhanilərin tələblərinə boyun əymədi. Hətta 1417-ci ildə Misir sultanının fərmanı ilə dərisi soyulmaqla edama məhkum ediləndə belə əqidəsindən dönmədi.

Nəsiminin doğma türk (Azərbaycan) dilində yazması onu həm sağlığında, həm də edamından sonrakı daha uzun, ədəbi ömründə bütün türk dünyasında tanıtmış və sevdirmişdi, onun zəngin bədii və fəlsəfi irsi Azərbaycan ədəbiyyatı və fəlsəfi fikrinin inkişafına çox böyük təsir etmişdir. Nəsimi dilinin və poetikasının dərin qatlarında hələ açılmamış sirlər çoxdur:

*Sirri-ənəlhəq söylərəm aləmdə,*
*pünhan gəlmişəm,*
*Həm həqq derəm, həqq məndədir,*
*həm xətmi-insan gəlmişəm.*
*Həm Lövhü Tövratü Zəbur,*
*İncilü Quranü Süfəf,*
*Həm mən kəlami-natiqəm,*
*həm cəm-i-Quran gəlmişəm.*
*Həm mən qələndərsurətəm,*
*fərdəm, mücərrəd təcridəm,*
*Oldum fəqirü həm gəda,*
*həm mülkə sultan gəlmişəm.*
*Gəlmiş cahana şərh edər*
*şimdi Nəsimi həqq sözün,*
*Ani kim idrak eyləsin,*
*mən sirri-pünhan gəlmişəm?!*

Nəsiminin fəlsəfi görüşlərinin, xüsusilə də hürufiliyin keçən əsrin 70-80-ci illərində Azərbaycan filosofları, AMEA-nın müxbir üzvləri, professor Zümrüd Quluzadə, professor Zakir Məmmədov və başqaları tərəfindən tədqiq edilib öyrənilməsi və Nəsiminin fəlsəfi görüşlərində hürufiliyin yeri və önəminin araşdırılması olduqca təqdirəlayiqdir. Lakin Zümrüd Quluzadənin 1970-ci ildə Bakıda rus dilində nəşr edilmiş "Hürufizm və Azərbaycanda onun nümayəndələri" adlı dəyərli monoqrafiyasının indiyə kimi Azərbaycan dilinə tərcümə edilmədiyini təəssüflə qeyd etməliyik. Düşünürük ki, tarixi-ədəbi mənbələrin dərindən təhlili əsasında yazılmış bu qiymətli əsərin ana dilimizdə nəşri olduqca vacibdir. Ümumiyyətlə, Nəsiminin zəngin fəlsəfi irsinin hərtərəfli tədqiq edilib öyrənilməsi, fars dilindəki divanının tərcüməsi ilə birlikdə akademik nəşrinin təmin edilməsi və onun fəlsəfi təhlilə cəlb edilməsi, ərəb dilindəki şeirlərinin tərcüməsi və şərhi, xüsusilə də onun günümüz üçün də dəyərli olan Yaradana, insana, bəşəriyyətə, ətraf aləmə məhəbbət təlqin edən həyat və mübarizə fəlsəfəsinin hərtərəfli açılması və təbliği "Nəsimi ili"nə əhəmiyyətli töhfə olardı.

***Eynulla MƏDƏTLİ,***
***AMEA Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***





# Mədəniyyət





● Şəhər nəqliyyatı

# Bakı konkası

**Azərbaycanda dəmir yolunun çəkilməsində Bakı nefti mühüm rol oynayıb. 1878-ci ildə Nobel qardaşlarının maliyyə vəsaiti hesabına mədənlərə neftayırma zavodlarını birləşdirən dəmir yolunun inşasına başlanılıb və bir ilə sona çatıb. 1880-ci ildə isə dəmir yolunun rəsmi açılışı olub. Beləliklə, dünyada ilk dəfə olaraq neft bu yolla sisternlərlə daşınmağa başlanıb.**





Respublika Dövlət Tarix Arxivində saxlanılan sənədlərdə diqqətçəkən faktlardan biri Bakıda yaşayan məşhur tacir Aleksandr Fyodroviç Fon Velkenin 1878-ci il sentyabr ayının 5-də Bakı şəhər idarəsinə ünvanladığı məktubdur.

Orta əsrlərdə Qərbi Avropada tacirlərin marağını və imtiyazlarını qorumaq üçün yaradılmış ittifaqın üzvü olan Fon Velkenin müraciət etməkdə məqsədi öz hesabına Qaraşəhərdən (Çornıy qorod) "Drujina" körpüsünə qədər şəhərə atla hərəkətə gətirilən tramvay xətti - dəmiryol konkası çəkmək idi. Bu konka Qaraşəhərdə yerləşən zavodlardan neft və digər neft məhsullarının daşınması üçün nəzərdə tutulmuşdu. Tacir öz məktubunda şəhər idarəsindən konkanın tikilməsi üçün boş ərazi verilməsini xahiş edirdi.

Arxiv sənədləri arasında şəhərin II hissəsində yaşayan Aleksandr Fyodroviç Fon Velkenin Bakı qubernatoru general-leytenant Valerian Mixayloviç Pozenə yazdığı ərizə də saxlanılır. Ərizədə qeyd olunur ki, Bakı sənayesinin əhəmiyyəti və rolu ildən-ilə artdıqca şəhərin neft və digər neft məhsullarının istehsalı inkişaf edir. Bu da həmin məhsulların zavodlardan körpüyə daşınmasında çətinliklər yaradır. Bundan əlavə, daşınmanın qiymətinin yüksək dərəcədə artdığı da bildirilirdi. Qeyd olunanları nəzərə alaraq tikilməsi üçün təqdim etdiyi müqavilənin təsdiqini və Bakı şəhərində dəmiryol konkasının tikintisinə icazə verilməsini xahiş edirdi.

Nəzərdə tutulurdu ki, konkanın uzunluğu 9 verst (1 verst - 1066 metr) məsafəni əhatə etsin. Küçənin eni 6 sajndan (1 sajn - 2,134 m) kiçik olmamalı idi. Əgər kiçik olarsa, həm konkanın, həm də piyadanın gediş-gəlişində maneələr yarada bilərdi. O səbəbdən də konkanın hərəkət istiqaməti ensiz küçələr üçün nəzərdə tutulmurdu. Məqsəd sərnişinləri Qaraşəhərə aparıb-gətirmək, neft və digər neft məhsullarını zavodlara daşımaq idi. Lakin müraciətə etiraz edilməsə də, V.M.Pozendən ərizəsinə müsbət cavab ala bilmədi. Halbuki müqavilə də hazırlanmışdı.

## Onlar at qüvvəsilə hərəkətə gətirilirdi

Konka relslər üzərində sərnişin və neft məhsullarını daşımaq üçün at qüvvəsi ilə hərəkətə gətirilən nəqliyyat vasitəsi idi. Bura bir neçə at qoşulurdu. Onların qüvvəsi ilə vaqonlar hərəkətə gəlirdi. Konkada atların işi çox çətin idi. Vaqonlar təxminən 150 pud (1 pud - 16,38 kq) ağırlığında idi. İçərisində 30-40 sərnişin olurdu. Orta hesabla sərnişinlərin ağırlığı isə 120-160 puda yaxın idi. Ağırlıq ümumilikdə 300 puda çatırdı. Bir reys ərzində vaqon 10-15 dəfə dayanırdı. Gün ərzində isə atlar 12-16 reys yol qət edirdilər. Atlardan biri ortada, digərləri yan tərəflərdə gedirdi. Konkanı idarə edən arabaçılar hər dəfə atları dəyişməli olurdular. Daha güclü və dözümlü atlardan çox istifadə edirdilər. Ağır iş rejimi atlarda əzələ iltihabı, çıxıqlar və başqa xəstəliklərin yaranmasına səbəb olurdu. Buna görə onlara xüsusi qulluq edilirdi. Əsasən yaxşı qidalanmalarına diqqət yetirilirdi. Sərf etdikləri enerji qarşılığında güclü qida rejimi təyin edilirdi.

Poçt və dəmiryol kassasına tərəf gedən küçələrdə vaqonların hərəkəti tez-tez gecikirdi. Bunun nəticəsində vaqonların hərəkəti pozulur və rels üzərində qalırdı. Getmək istədikləri ünvanlara gecikən sərnişinlərin şikayətləri artırdı. Digər tərəfdən, atların sağlamlığına pis təsir edirdi. Gecikmələr zamanı onlar atları cəld getməyə məcbur edirdilər. Çünki gün ərzində təyin olunmuş reysi yerinə yetirmək lazım idi. Bakı şəhər dəmiryol konkasının rəhbəri problemləri aradan qaldırmaq üçün Bakı şəhər idarəsinə 1 avqust 1911-ci ildə məktubla müraciət etdi. Həmin müraciət Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin sənədlərində öz əksini tapmışdır.

## 1889-cu ildə Bakıda ilk konka istifadəyə verildi

Bu, böyük dəyişikliyə səbəb oldu. Eyni zamanda şəhərdə əsrlər boyu istifadə olunan keçmiş nəqliyyat vasitələri - müxtəlif növ arabalar, məşhur faytonlar da mövcud idi. 1887-ci ildə milyonçu Hacı Zeynalabdin Tağıyev başda olmaqla digər beş mesenat Atlı-Dəmiryol Səhmdar Cəmiyyətini təşkil etdilər. Səhmdar cəmiyyətinin ilk sədri H.Z.Tağıyev oldu. 1889-cu ildə aksioner cəmiyyətinə məxsus olan ilk konka istifadəyə verildi. Konkanın yay və qış üçün iki növü nəzərdə tutulmuşdu. Sərnişinlərin rahatlığını təmin etmək məqsədilə vaqonlarda siqaret çəkmək qəti qadağan edilmişdi. Qış vaqonları kip örtülmüş pəncərələrdən ibarət idi. Qış vaqonlarında gediş haqqı 5 qəpik, yay vaqonlarında isə 3 qəpik idi. Beş yaşına qədər uşaqlar üçün gediş haqqı pulsuz idi. Polis işçiləri vəzifə başında olarkən konkadan pulsuz istifadə etmək hüququna malik idilər. İş başında olmayanda isə polis vəsiqələrindən istifadə edirdilər. Rütbələri kiçik olan polis işçiləri vaqonlarda ayaq üstə dayanırdı.

1895-ci ildə artıq Bakıda 4 xətt üzrə dəmiryol konkaları işə salındı. Bunlar Vağzal-Bayıl, Vağzal-Şamaxinka, Şamaxinka-Bayıl, Vağzal-Qaraşəhər xətlərindən ibarət idi.

Tələbələr üçün də gediş haqqı pulsuz idi. Onlar öz tələbə biletlərini göstərib vaqonlara pulsuz daxil olurdular. Lakin gəmi mexanikləri məktəbinin direktorunun 1911-ci il 12 noyabr tarixində Bakı şəhər idarəsinə ünvanladığı məktubda qeyd edilirdi ki, rəhbərlik etdiyi məktəbin tələbələri biletlərini göstərmələrinə baxmayaraq, onlardan gediş haqqı tələb olunur. Direktor məktubunda bu ayrı-seçkiliyə son qoyulmasını Bakı şəhər idarəsinin rəhbərliyindən xahiş edirdi.

20 oktyabr 1900-cü ildə Bakı Şəhər Dumasının üzvü A.N.Saparov tərəfindən 12 il əvvəl tikilmiş dəmiryol şəbəkələri artıq köhnəldiyindən dəmiryol konkalarının şəbəkələrini yenisi ilə genişləndirmək təklif edilirdi. Saparov təklif edirdi ki, Azneftdən Qaraşəhərdəki mexaniklər zavoduna doğru yeni dəmiryol şəbəkəsi çəkilsin və yeni xətt bir neçə küçədən keçsin.

Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin sənədlərində Bakı konkasında fəaliyyət göstərən şəxslərin qanun pozuntusuna görə işdən azad edilmələri və iş başında olarkən baş vermiş hadisələrlə bağlı Bakı şəhər başçısına yazılmış müxtəlif ərizələri də mövcuddur. Təftiş komissiyasının apardığı yoxlama əsasında üzə çıxan çatışmazlıqlar və qanun pozuntuları ilə bağlı Bakı qradonaçalnikliyinə şikayət ərizələri yazılmış, bu şikayətlər əsasında müzakirələr aparılmış və qərarlar qəbul olunmuşdu. Həmin sənədlər ARDT arxivində tarixi bir sənəd kimi qorunmaqdadır.

❖❖❖

Bakı şəhərində konkanın fəaliyyətinin ən qızğın dövrü 1900-1915-ci illərə təsadüf edir. Daha sonra tədricən digər nəqliyyat vasitələri meydana gəldikcə onun fəaliyyəti zəifləməyə başladı. Konka 1 oktyabr 1923-cü ilədək fəaliyyət göstərdikdən sonra yerini zamanla ayaqlaşan daha müasir nəqliyyata verdi.

***Vəfa ƏLİYEVA,***
***Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin aparıcı arxeoqrafı***

● Yazı mədəniyyəti

# 7 min ilə yaxın tarixi olan mənəvi sərvətimiz

**Yazı mədəniyyətin, onun sahələrindən olan incəsənətin növlərindəndir. Çünki yazının yaranması insan şüurunun inkişafının ən bariz nümunələrindən hesab edilir. Yazı səsli dilin norma ilə qavrayışını təmin edən işarələr qrupudur. O, insanlar üçün ən böyük kəşflərdən biridir. Yaranmasının çox qədim tarixi var. Bəşəriyyətin ilk dövründə ünsiyyət yalnız şifahi formada olub. İlk yazı nümunələrinin isə artıq 7 min ilə yaxın tarixi var. Uzun inkişaf yolu keçərək bugünkü formaya gəlib çatan yazının necə yarandığını tapmaq üçün əvvəlcə düşünülməlidir: yazı niyə yarandı?**



Şifahi şəkildə ünsiyyət hələ ibtidai icma dövrünün ilk çağlarından yalnız səslər vasitəsilə mövcud idi. Sonrakı dövrlərdə ictimai quruluş formalaşdıqca insan qrupları arasında siyasi, iqtisadi... əlaqələrin qurulması üçün ikinci köməkçi ünsiyyət vasitəsi olaraq yazı yaranmağa başladı. Deməli, yazı insanların dillə, şifahi ünsiyyət saxlamaları mümkün olmadığı şəraitdə tələbatdan yaranıb. Dilin əmələ gəlməsində olduğu kimi, yazının yaranmasında da kollektiv əmək danılmazdır. Yəni yazı ayrı-ayrı şəxslər deyil, ümumi kollektiv tərəfindən yaradılıb.

Son tədqiqatlara görə, yazının 4 əsas tipi var: piktoqrafik - şəkli; ideoqrafik - fikri; sillabik - hecalı; fonoqrafik - səs yazısı. Onların hər biri isə xüsusiyyətlərinə görə bir-birindən fərqlənir.

Yazının ilk tipi - piktoqrafiya üsulu çox qədim tarixə malikdir. İnsanların çəkdiyi ibtidai şəkillər bu və ya digər məlumatı əks etdirdikdə şəkli yazı yaranmağa başlayıb. Tədqiqatçıların söylədiklərinə görə, bu yazıdan Azərbaycanda da istifadə olunması barədə tutarlı faktlar var. Bunlardan biri Qobustanda 720 qaya üzərində 4 mindən çox təsvirin olmasıdır. Həmin təsvirlərin çoxu piktoqrafiyadır. Bundan başqa, Kəlbəcərdə "İkinci Qobustan" adlandırılan ərazidə, Qazax və Gədəbəydə də piktoqramlar tapılıb.

Arxeoloqların aşkar etdikləri yazılı heyvan sümükləri dəqiq olmasa da, təxminən eramızdan on beş əsr əvvələ aid edilir. Qədim yazı texnikası bu gün də saxlanmaqdadır. Heca yazısının ünsürlərinin formalaşdığı ən qədim yazılardan biri də şumerlərindir. Qədim heca işarələri eramızdan əvvəl üçüncü minilliyin əvvəlində şumer yazısında əmələ gəlib. 1938-ci ildə şumer dilini ilk dəfə türk dilləri ilə əlaqələndirməyə cəhd göstəriblər. Onların ilk yazısı piktoqrafik xarakterli olub. Bu yazı zahiri əlamətlərinə görə başqalarından fərqlənirdi: işarələri mismara bənzəyirdi. Azərbaycan dilində bu, "mixi yazı" adlandırılır.

Beləliklə, araşdırmalar göstərir ki, dünyada 4 yazı tipinin hər birindən bu gün də istifadə olunur. Onu da deyək ki, hazırda latın, arami, finikiya, kiril, ərəb və brahmi şriftləri dünya dilləri üçün əsas götürülür.

Bu gün dünya ictimaiyyətinin daha çox istifadə etdiyi "Facebook" sosial şəbəkə yaşından və intellektual səviyyəsindən asılı olmayaraq müəyyən dünyagörüşünə malik insanların virtual əlaqə yaratdığı məkan kimi ilk baxışdan maraqlıdır: burada ağıllı da var, savadlı da, səviyyəliyə də rast gəlmək mümkündür, əksinə də! Ona görə də internetdə mənəvi sərvətlərimizdən olan yazı mədəniyyətinin qorunması problemi yaşamaqdadır. Təəssüf ki, ilk baxışdan qarşılaşdığımız məhz dil və yazı mədəniyyətində yol verilən çox kobud xətalardır. Danışıq və yazı dili burada qarışdırıldığına görə anlamaq olmur ki, bunları yazan azərbaycanlıdır, yoxsa hansısa bir əcnəbi. Bunlar bəlkə də bir qədər dözüləsi haldır. Onlardan da dəhşətlisi mobil telefonlar (smartfonlar) vasitəsilə internetə daxil olanların yazışmalarındakı səhvlərdir. Burada, demək olar ki, dilimizin və yazı mədəniyyətimizin bütün meyarları kobudcasına pozulur. İlk baxışdan düşünmək olardı ki, (əslində, belə idi) həmin telefonların dili bizimki olmadığı üçün bu problem qaçılmazdır. Lakin mobil telefonların proqramlarındakı son yeniliklər imkan verdi ki, biz də ana dilimizdə yaza bilək. Hələ ki bəzi şəbəkə istifadəçiləri istisna olmaqla, bu halın kütləviliyi cəmiyyəti ciddi şəkildə düşündürən məsələ kimi öz aktuallığını saxlamaqdadır. Bunlarla yanaşı, sosial şəbəkələrdə etik norma gözlənilmir, sözlər qramatik, fikirlər üslub baxımdan ciddi səhvlərlə yazılır. Yazışmalarda Azərbaycan əlifbasına məxsus "ə" "ö", "ü", "ş", "ç", "ğ" kimi hərflərdən istifadə olunmaması nəinki dilimizin qayda-qanunlarının pozulmasına gətirib çıxarır, həm də gələcək nəsillərin dilimizin gözəlliyindən məhrum edilməsi deməkdir. Məsələn, "təşəkkür - tşk", "salam - slm", "hə - ok" "yaxşı - iyi", "no problem" və s. kimi yazılan sözlərin hansı dilə və ya xalqa mənsub olması qaranlıq qalır. Bu problemi yaradan və yayan savadsız, intellektual baxımdan aşağı səviyyədəkilər olsaydı, nə vardı... Bəla burasındadır ki, həmin yazıların müəllifləri hətta dilçilərdir.

Bu gün sosial şəbəkələrdə müxtəlif dövlətlərin diversantları antimilli mövqe ortaya qoyaraq Azərbaycan əleyhinə kampaniya aparır, mənəvi dəyərlərimizə qarşı müxtəlif formada terror edirlər. Azərbaycan tolerant ölkədir. Bu, aydındır, çoxmillətli ölkələrdə dilin zənginliyi diqqət çəkir. Ölkəmizdəki müxtəlif azsaylıların dilinə, mədəniyyətinə, məişətinə, milli adət-ənənəsinə, musiqisinə və mətbəxinə hörmət xalqımızın mənəvi zənginliyini göstərir. Eyni zamanda, Azərbaycan multikultural ölkə olduğu üçün burada hər bir xalqın dininə, dilinə, mənəvi dəyərlərinə hömətlə yanaşılır. Lakin bu heç də o demək deyil ki, rəsmi dövlət və ədəbi dilimizi "modernləşdirək" - "müasirləşdirək" - əcnəbi dillərdən öyrəndiyimiz beş-on kəlmə ilə "bəzəyək".

Çox təəssüf ki, yeni "alınma" sözlərlə yanaşı, hətta sosial mediada, xüsusən də "Facebook"da qeyri-etik ifadələrə, sarkazmlarla bir-birini mənasız ittihamlara da rast gəlinir. Mətbuatda ədəbi dil normalarının qorunması mühüm məsələdir.

Televiziya və radiolarda dillə bağlı verilişlərin sayı artırılmalı, jurnal, qəzet redaksiyalarında, həmçinin saytlarda bu mövzuda sistemli şəkildə materiallar dərc olunmalıdır. Ümumiyyətlə, saytlar və redaksiyalar Azərbaycan dilinə hörmətlə yanaşmanı gündəlik iş normasına çevirməyi bacarmalıdırlar.

Əlbəttə, sadə insanlar da bir çox hallarda ədəbi dil normalarını pozurlar. Bu, sosial şəbəkələrdə özünü açıq-aydın göstərir. Bəzən tanıdığın, qələminə hörmət etdiyin biri də sosial şəbəkədə paylaşdığı adi mətndə durğu işarələri, müxtəlif ifadələrlə bağlı ciddi səhvlərə yol verir.

Yazı mədəniyyətinin formalaşması uzun və tarixi yol keçib. Onu hər hansı vasitə ilə itirmək, qüsur və xətalara yol vermək olmaz!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Dünyanın yeddi möcüzəsi

# Olimpdə Zevsin heykəli

**Elə sənət əsərləri olub ki, araya-ərsəyə gətirildiyi dövrün özündə də böyük heyrət doğurub. Hətta müəlliflərini görüb-tanıyanlar da onların bir insan zəkası, insan əli ilə yaradıldığına təəccüblənibiər. Belə əsərlər az olmasa da, onlardan yeddisi qədim dünyanın möcüzəsi hesab edilir.**



Zamanın amansız tufanları, qasırğaları antik sənət əsərlərinə qarşı amansız oldu. Qədim dünyanın yeddi möcüzəsi sayılan ecazkar abidələrin çoxu dövrümüzə gəlib çatmadı. Ancaq həmin sənət möcüzələri unudulmadı. Onlardan biri də Olimpdə Zevsin heykəlidir.

## Qalib hökmdar

Qədim yunan əsatirlərində bildirilir ki, bir vaxtlar atası Uranın hakimiyyətini ələ keçirən Kron uşaqlarının da onu taxt-tacdan məhrum edəcəklərindən qorxduğu üçün onları udur. Buna görə də ilahə Reya Zevsi Krondan gizli Krit adasındakı Psixro mağarasında dünyaya gətirir. Reya ərini aldadaraq ona yemək üçün Zevsi yox, bələnmiş daş parçasını verir. Beləcə, Zevs xilas ola bilir.

Bir gün Kronun qorxduğu başına gəlir. Zevs hakimiyyət uğrunda mübarizədə atasını məğlub edir. Qədim Yunanıstanda bu hadisə ilə əlaqədar olaraq Olimpiya oyunları təşkil edilir. Açılışda Zevsə qurban kəsilir.

Hökmdarın müqəddəs yeri Olimp məbədi olur. Olimpiya şəhərinin mərkəzi meydanında mərmər üzlük çəkilmiş və müxtəlif heykəllərlə, döşəməsi isə möhtəşəm mozaika ilə bəzədilmiş əzəmətli məbədin içərisində böyük qırmızı pərdə arxasında yunanların baş allahı Zevsin heykəli qoyulur. Əsərin müəllifi eramızdan əvvəl V əsrin məşhur heykəltəraşı Fidi idi. Bu heykələ qədər Parfenondakı Afina heykəlini və Parfenonun divar relyeflərini, Afinanın yenidən qurulması planını hazırlasa da, Zevsin heykəli onu daha çox şöhrətləndirir.

Antik müəlliflərin məlumatına görə, abidəsində Zevs qızıl və fil sümüyü ilə bəzədilmiş taxtda əyləşmişdi. Onun yuxarı hissəsi çılpaq, aşağı hissəsi zəngin paltara bürünmüşdü. Bədəni və başı ağacdan düzəldilən, üzəri fil sümüyü ilə örtülən yunanların baş allahının bir əlində qələbə ilahəsinin - Nikanın heykəli, digərində Zevsin müqəddəs quşu - qartalın təsviri ilə bəzədilmiş hökmdarlıq əsası var idi. Zevsin başını qızıldan düzəldilmiş zeytun yarpaqları çələngi bəzəyirdi. Çələng zəhmli tanrının sülhsevərliyinə işarəydi. Onun saqqalı və qıvrım saçlarla haşiyələnmiş sifətində ciddiliklə bərabər xeyirxahlıq əksini tapmışdı.

## Sənət möcüzəsi

Məbədə çətinliklə yerləşən heykəlində Zevs oturaq vəziyyətdə təsvir edildi. Belə təsəvvür yaranırdı ki, yunanların baş allahı ayağa qalxarsa, məbədin tavanı çökər. Heykəlin oturdulduğu döşəmə 6,5 metr genişliyində və 1 metr hündürlükdə, heykəlin özü 12 metr hündürlükdə idi. Üzərində isə yunan tanrılarının və Sfinks kimi mistik heyvan fiqurları əksini tapır. Heykəlin dərisinin fil dişindən, saqqalının, saçlarının, paltarının isə qızıldan olması onu daha da əzəmətli göstərirdi. Belə ki, parlaq fil dişi, qızıllar qaranlıq dəhlizdən keçənlərin gözlərini qamaşdırır, onlarda böyük təəssüratlar yaradırdı.

Olimpiadalar əsnasında döyüşlər dayanar, dünyanın hər yerindən bura gələn atletlər üçün heykəlin qarşısında mərasimlər təşkil olunurdu. Zevsin heykəli eramızdan əvvəl 450-ci ildə, məbəd isə ondan da qabaq - eramızdan əvvəl 770-ci illərdə olimpiadalar başlandıqdan sonra inşa edilmişdi.

İllər keçsə də, Zevsin heykəlinin şöhrəti azalmırdı. Yunanıstanda Zevsin heykəlini görməyən adamı bədbəxt hesab edirdilər. Bura yalnız ibadət üçün deyil, həm də bu misilsiz sənət əsərinə baxmaq üçün gəlirdilər.

Eramızdan əvvəl 200-cü ildə heykəl bərpa olundu. Ancaq Romaya daşınarkən zədələndi.

Roma imperatoru Dominisian (284-305) tərəfindən olimpiada oyunları qadağan edildikdən sonra bütpərəstlik nümunəsi kimi Zevs məbədi də bağlandı. Bundan sonra bura maraq azaldı. Təbiətin şıltaqlıqları - zəlzələlər, sellər isə heykəlin köhnəlməsini sürətləndirdi. Dünyanın yeddi möcüzəsindən biri sayılan heykəl zəngin yunanlar tərəfindən yeni qurulan və ozamankı adıyla Konstantinopol deyilən İstanbula aparıldı.

## Böyük yanğının qurbanı

Əsrlər ötdü. Bizansda bütpərəstliyin yerini xristian dini aldı. Bütpərəstliyə aid abidələrə etinasızlıq göstərməyə başladılar. Ancaq imperatorun qorxusundan Zevsin heykəlinə toxunmağa kimsə cürət etmədi. Beləliklə, heykəl bütpərəstliyə düşmən münasibət bəsləyən xristianların hücumlarından bir müddət qorunmuş oldu. Bununla belə, abidənin yox olmasını istəyənlər öz niyyətlərindən dönmədilər. Aradan xeyli vaxt ötdü. Bir dəfə kilsədə yaşlı bir mömin din xadimlərinə bütpərəst heykəlinin xristian məbədində saxlanılmasının böyük qəbahət olduğunu söylədi. Amma heykəl elə məhv edilməli idi ki, bu məsələdə kimsəni ittiham etmək mümkün olmasın. Yaşlı mömin bunun yolunu da göstərdi. Bunun üçün imperatorun sarayı tamam yanmalı idi. Bu fikir xristian fanatiklərinə ağlabatan göründü. Eramızın V əsrində II Feodosinin sarayı yandırıldı. Zevsin nəhəng heykəli də yanıb külə çevrildi. Beləcə, 462-ci ildə baş verən böyük yanğında qədim dünyanın yeddi möcüzəsindən biri, Fidinin qeyri-adi heykəltəraşlıq məharəti ilə yaratdığı heyrətamiz sənət əsəri - Zevsin heykəli məhv oldu.

Zevsin heykəlinin qalıqları Afinanın 150 kilometr qərbində yerləşən qədim Olimpiya şəhərində, ilk olimpiadaların keçirildiyi yerdədir. 1829-cu ildə Olimp dağında heykələ aid bəzi parçalar tapıldı və Fransaya aparıldı. Hazırda həmin hissələr Parisdə Luvr Muzeyində sərgilənir.

Təəssüf ki, olimpli Zevsin heykəlini qorumaq, mühafizə etmək mümkün olmadı. Amma o ecazkar sənət nümunəsini təsəvvürlərdə canlandırmaq, təsvirlərini cızmaq üçün mənbələrdə və dildən-dilə keçən əhvalatlarda kifayət qədər məlumatlar qaldı.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# Sağlıq olsun

## Günəşin zərbəsi

**Həkim məsləhəti**



**Yay aylarında insanları ən çox narahat edən problemlərdən biri günvurma və istivurma ilə bağlıdır. Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi Rauf Nağıyev deyir ki, günvurma və istivurmanın əlamətləri eyni olsa da, baş vermə səbəbləri fərqlidir.**

İstivurma hər hansı səbəbdən isti şəraitdə olan yerlərdə, günvurma isə açıq günəş şüaları altında qalan adamlarda baş verir. Günvurma halları üç dərəcədə olur. Yüngül, orta və ağır. Azyaşlı uşaqlar, xəstə insanlar və yaşlılar belə hallar üçün daha həssas qrupdur və onların vəziyyəti daha tez pisləşə bilər.

### Baş ağrısı, halsızlıq, ürəkbulanma...

R.Nağıyev deyir ki, günvurma halı özünü yüngül başağrısı, ürəkbulanma ilə büruzə verir. Günəş şüalarının təsirindən dəridə yanmalar da qeydə alınır. Baş ağrısı, halsızlıq, ətraf mühitə reaksiyanın zəifləməsi, ürəkbulanma kimi hallar ortaya çıxır. Əgər ağır formada günvurmadırsa, sadalanan əlamətlər şok vəziyyətinə gətirib çıxara bilər. Hər bir insan özünü açıq günəş şüaları altında qalmaqdan qorumalıdır.

Müddət nə qədər çox olarsa, günvurmanın fəsadları da ağırlaşır. Çünki ətraf mühitin rütubəti yüksək olanda orqanizmdə temperatur mübadiləsi çətin gedir. Bu zaman daha ağır nəticələr verir.

Saat 11:00-dan 17:00-dək açıq gün şüaları altına çıxmaq olmaz. İsti havalarda, əsasən, sərin yerlərdə, havası tez-tez dəyişdirilən otaqlarda olmaq məqbuldur: "Əgər kimsə açıq günəş altına çıxmağa məcburdursa, belə halda mütləq baş örtüklərindən istifadə etməlidir. Açıq rəngli və təbii geyimlər seçilməlidir. Bununla yanaşı, mütəmadi olaraq maye, mineral və təbii suların qəbul edilməsi məsləhətdir. Həmçinin yüksək kalorili, ağır yeməklərdən istifadə etmək olmaz. Yaxşı olar ki, əsasən tərəvəzi bol olan yeməklərə üstünlük verilsin".

### İlk yardım

"Günvurma zamanı ilkin tibbi yardım kimi zərərçəkəni kölgəyə və sərin otağa aparmaq, geyimini yüngülləşdirmək lazımdır. Bundan əlavə, onun bədən hərarətini aşağı salmaq üçün libası su ilə isladılmalıdır. Zərərçəkənə soyuq su verin, üzünü və sinəsini soyuq su ilə silin. Başına, boyunun yan tərəflərinə, qoltuqaltı və qasıq nahiyələrinə (iri damarlar keçən yerlər) buz və ya bu, mümkün olmadıqda, soyuq su ilə kompres qoyun. Zərərçəkənə huşunu itirdiyi halda naşatır spirti iylətmək, tənəffüs olmadıqda süni tənəffüs vermək lazımdır. Bundan sonra mütləq həkimə müraciət etmək gərəkdir" deyə mütəxəssis bildirir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

### Bilirik?

- Karies xəstəliyinin 5000 il bundan əvvəl yaşamış insanlarda da olduğu öz təsdiqini tapıb. Tibb elmi ağız suyunun tərkibinin keyfiyyətinin pis olmasının dişlərdə karieslərin əmələ gəlməsinə səbəb olduğunu sübut edib;
- Sıx hörülmüş saç hörükləri, "Afro" saç düzümü getdikcə saçların tökülməsinə və dazlaşmaya gətirib çıxarır;
- Hər gözün 6 xarici əzələsi var. Bu əzələlərdən biri və bir neçəsi daha güclü və ya daha zəif olduğu zaman çəpgözlük yaranır;
- 1346 - 1353-cü illərdə Avropa əhalisinin 25%-i taun xəstəliyinə yoluxub. Bu dövr ərzində "qara ölüm" adlandırılan həmin xəstəlikdən 75 milyon adam dünyasını dəyişib;
- İnsanların bir çoxu kor bağırsaq çıxıntısının orqanizm üçün artıq orqan olduğunu düşünür. Amma araşdırmalara əsasən, kor bağırsaq çıxıntısı insan bağırsağı üçün vacib sayılan mikroorqanizmlərin artıb çoxalması baxımından vacib orqan hesab edilir. Mütəxəssislər kor bağırsağı əməliyyat etdirməzdən əvvəl onun hansı səbəblərdən patologiyaya uğramasının səbəbini araşdırmağı məsləhət bilirlər.

**Xalq təbabəti**



## İnfarkt riskini azaltmağın yolları

Bəzi qidaların ürək və damarı qoruyaraq infarkt riskini azaltmaqda böyük faydası var. Həmin qidalardan bəzilərinin siyahısını təqdim edirik.

**Yulaf**

Lif səviyyəsi yüksək olan yulaf pis xolesterola mane olaraq həzmə kömək edir.

**Qırmızı meyvələr**

Gilas, çiyələk kimi qırmızı meyvələr qan təzyiqini azaldaraq damarları genişləndirir.

**Nar**

Antioksidantla zəngin olan nar qan dövranını tənzimləyir və qandakı hemoqlobini artırır.

**Çərəzlər**

Protein və lif baxımından zəngin olan çərəzlər ürəyə xeyirdir. Həmçinin tərkibindəki E vitamini ilə pis xolesterol səviyyəsini azaldır.

**Yağlı balıq**

Tərkibində yağ səviyyəsi yüksək olan balıq damar tıxanıqlığının qarşısını alır.

**İspanaq**

Bir çox vitamin, mineral və antioksidant tərkibli ispanaq qan təzyiqini normallaşdırır.

**Şəfalı bitkilər**

## Qan deposu - giləmeyvə

**İnsan orqanizmi üçün faydalı giləmeyvələrdən biri albalıdır. Albalı bir çox xəstəliklərin qarşısını almaq qabiliyyətinə malikdir.**



- Albalı ürək-damar və qan sistemi üçün olduqca faydalıdır. Tərkibində kumarin maddəsi olan albalı qanı duruldur, damarlarda trombların əmələ gəlməsinin qarşısını alır, möhkəmləndirir, elastikliyini artırır, qanda xolesterolun səviyyəsini aşağı salır, aterosklerozun inkişafının qarşısını alır.

Qan problemləri, anemiya (qanazlığı) zamanı da albalı və albalı şirəsi təbii müalicəvi məhsul sayılır.

- Albalı həzm sisteminin fəaliyyətini stimullaşdırır, bağırsaqlara yüngül işlədici təsir edir.
- Albalı və albalı şirəsi nəfəsalma sistemində iltihabları azaldır, bəlğəmgətirici təsir edir.
- İltihab və mikrobəleyhinə xüsusiyyətlərə malik albalı soyuqdəymə zamanı kömək edir. C vitamini ilə zəngin olduğuna görə immun sistemini möhkəmləndirir.
- Albalı sinir sisteminə də yaxşı təsir edir.
- Ellaq turşusu ilə zəngin olan albalı xərçəng hüceyrələrinin inkişafının qarşısını alır.
- Araşdırmalar sübut edib ki, bu giləmeyvə görməyə yaxşı təsir edir, göz xəstəliklərinin inkişafından qoruyur.
- Orqanik turşularla zəngin olan albalı orqanizmdə piylərin parçalanmasını sürətləndirir, arıqlamağa kömək edir.
- Güclü antioksidant xüsusiyyətlərlə zəngindir - orqanizmdə qocalma proseslərini ləngidir, cavanlaşdırır, iltihabları azaldır.

**Sağlam qida**

## Dondurucu dad

Yay aylarının ləzzətli qidaları arasında dondurmanın öz yeri var. Amma dondurma yeyərkən müəyyən nüanslara diqqət etmək lazımdır ki, səhhətə ziyan olmasın.



Bu barədə diyetoloq Şəhriyyə Əhmədova bildirib ki, gündəlik qida rejiminə şəkər, yağ, karbohidrat balanslı şəkildə daxil edilməlidir, o cümlədən rasiona dondurma da daxil etmək lazımdır, sadəcə miqdarını aşmamaq şərti ilə: "Dondurma ilə meyvəni sıralamaq məsləhətdir. Bu iki qidanı qətiyyən qarışdırmaq olmaz. Günün müəyyən saatı meyvə, digər saatında dondurma yemək olar. İki pay meyvə, üstəlik, dondurma yemək istəyirsinizsə, meyvənin bir payını dondurma ilə əvəz edin. Dondurma isə souslu olmamalıdır. Eyni zamanda, dondurma yeməyin saatına diqqət etmək vacibdir. Günün birinci yarısı, yəni saat 17:00-18:00-a qədər yeyilməsi daha məqsədəuyğun sayılır. Axşam saatlarında dondurma yemək məsləhət deyil".

Diyetoloq deyir ki, normadan çox yeyilən hər bir qida artıq çəkiyə səbəb olur. Sözsüz ki, şokoladlı, fıstıqlı, qarışıq, iki və daha çox pay dondurma yemək rejimdən çıxmanıza səbəb olar:

### Boğazın şişməsinə səbəb olur?

"Valideynlərin narahat olduğu məqamlardan biri də uşaqların dondurma yeyərək xəstələnməsidir. Bir çoxları dondurma yedikdən sonra boğazlarının şişdiyini deyir. Amma uşaqlar da rahatlıqla dondurma yeyə bilər. Bu sevimli qida onlarda ciddi problem yaratmaz. Yetər ki, müəyyən olunmuş vaxtda və az olsun. Uşaqlara bir paydan çox olmayaraq və günün birinci yarısında dondurma vermək olar. Dondurma yeyən zaman boğazın şişməsi orqanizmdən asılı olan problemdir. Əgər boğazda həssaslıq, xroniki faringit varsa, əlbəttə, dondurma qıcıqlanma yaradar. Amma yenə də bir pay dondurma boğaz ağrıtmaz. Faringit olan halda dondurmanı bir az yumşalmış halda, ərimiş formada yemək daha yaxşı olar" deyə mütəxəssis bildirir.

## Biz dəyişirik ki, həyatları dəyişək!

*"Azercell" yeni brend kimliyini açıqladı*







Azərbaycan telekommunikasiya sektorunun lideri, fəaliyyət tarixində yeni bir dönəmə qədəm qoyan "Azercell" iyun ayının 21-də Heydər Əliyev Mərkəzində dövlət və biznes strukturları, ictimai xadimlər və media nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə yeni brend kimliyini ictimaiyyətə təqdim edib.

Tədbirdə şirkətin fəaliyyətini qloballaşan dünya bazarının trendlərinə uyğun şəkildə qurmağa yönəlmiş strateji inkişafın rəqəmsal konsepsiyası da açıqlanıb. Şirkətin prezidenti Vahid Mürsəliyevin sözlərinə görə, rəqəmsal texnologiyalar əsrində transformasiya məsələsi xüsusilə aktualdır. "Telekommunikasiya sahəsi ən çevik sahə olaraq müasir həyatın ritmini təyin edir. O, dünyanı dəyişdirdikcə, biz də mütləq şəkildə dəyişməliyik. "Azercell" olaraq dəyişməyə şadıq. Dəyişmək yaşamaq deməkdir. Dəyişmək daha yaxşı olmaq, daha ağıllı və daha mobil sabah üçün bugünkü "səndən" üstün olmaq deməkdir. Strategiyamız rəqəmsallığa doğru dəyişir. Bizim yeni rəqəmsal dünyamızın mərkəzi müştərimiz olacaq. Bütün bu yeniliklər məhz onların həyatlarını rahatlaşdırmaq və daimi bağlantını təmin etmək üçündür" deyə Vahid Mürsəliyev bildirib.

"Azercell" ölkə əhalisinin əksəriyyətinin seçimi və yerli telekommunikasiya sektorunun lideri olmasına baxmayaraq, yeni bağlantı erasında transformasiya etməyi zəruri saydı. "Azercell" artıq rəqəmsallığı gündəlik proseslərində və düşüncə tərzində əks etdirən, inkişaf yolunda dəyişkənliyə çevik bir şirkət olaraq abunəçilərinin qarşısına çıxır. Bu transformasiya "Azercell" ilə abunəçilər arasında illərlə formalaşan mövcud emosional bağı möhkəmləndirməyə vəsilə olacaq.

Yeni brend kimliyi ilə abunəçiləri üçün rəqəmsal dünyanın sonsuz imkamlarını açan "Azercell" müasir texnologiyaların tətbiqi ilə onların həyatlarını əsaslı şəkildə dəyişəcəyini bəyan etdi. "Azercell"in çevikliyi və yenilikçi ruhunun rəmzi olacaq, keçmişlə gələcək arasında bir bağ yaradaraq, hərəkət və inkişafı təcəssüm etdirəcək yeni nişan şirkət tarixində təzə eranın başlandığının əksidir.

Qeyd etmək istərdik ki, iyunun 21-də Heydər Əliyev Mərkəzində keçirilən tədbir zamanı qonaqlara Azərbaycanda ilk dəfə olaraq, 360 dərəcəlik 3D proyeksiyası nümayiş etdirilib. Həmçinin "Azercell" Heydər Əliyev Mərkəzinin parkında "Rəqəmsal Səma Altında" adlı sərbəst girişli konsert təşkil edərək tamaşaçılara Emin Ağalarov, Zülfiyyə Xanbabayeva, Nigar Camal, Çingiz Mustafayev, Elnarə Xəlilova, Elşad Xose kimi tanınmış müğənnilərin ifasında səslənən mahnıları dinləmək imkanı təqdim edib. Burada ölkəmizdə ilk dəfə olaraq 300-ə yaxın dron səmada Azərbaycan bayrağı və xəritəsinin, "Azercell"in köhnə və yeni loqolarının təsvirini yaradaraq izləyicilərə möhtəşəm bir şou sərgiləyib.

Yeni dövrdə "Azercell"in prioritet sahələri müştəriyönümlü şirkət və etibarlı tərəfdaş kimi seçilməkdir. Hər zaman innovativ və rəqəmsal həllər təqdim edən, məlumat məxfiliyini qoruyan, təkcə müştərilərinin ehtiyaclarını qarşılamağa deyil, bu ehtiyaclardan bir addım öndə olmağı bacaran şirkət bundan sonra da ən son trendlərə uyğun məhsullar və xidmətlər təqdim edən bir şirkət kimi fəaliyyətini davam etdirmək əzmindədir.

***"Azərbaycan"***

### Film növbəti beynəlxalq mükafata layiq görülüb

"Çölçü" bədii filmi bu günlərdə ABŞ-da keçirilən "Depth of Field International Film Festival Competition 2019" film müsabiqəsinin "Art-House" proqramında iştirak edərək "Möhtəşəm mükafat"a (EXCEPTIONAL MERIT) layiq görülüb.

AZƏRTAC xəbər verir ki, rejissor Şamil Əliyevin Antonioni, Tarkovski, Qodar, Berqman kino mükafatlarının nominantı olan "Çölçü" filmi Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm" kinostudiyasında 2012-ci ildə istehsal olunub. Film 5 qitəni əhatə edən 48 beynəlxalq kino festivalında iştirak edərək 25-dən çox mükafat qazanmışdır. "Çölçü" ümumilikdə bir neçə dəfə "Ən yaxşı bədii film", "Ən yaxşı rejissor işinə görə", "Ən yaxşı ssenari", "Ən yaxşı qadın oyunçu", "Yaradıcılıq axtarışlarına görə", eləcə də münsiflər heyətinin xüsusi diplom və mükafatlarına, "Humay" milli mükafatına layiq görülüb.

Filmin ssenari müəllifi Vidadi Həsənov, operatoru Rafiq Quliyev, rəssamları Rafiq Nəsirov və İbrahim Aminovdur. Filmdə Vidadi Həsənov, Bəhruz Vaqifoğlu, Cavidan Məmmədov və başqaları çəkiliblər.

Azercell

### abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 25.06.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərməsi imkanı təmin ediləcəkdir.

# Beynəlxalq aləm

## ABŞ Çinin beş şirkətinə qarşı sanksiyalar tətbiq etdi



ABŞ Ticarət Nazirliyi Çinin beş şirkətini Amerika mallarını və xidmətlərini ala bilməyən hüquqi şəxslər siyahısına daxil etmişdir. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Nazirliyin press-relizində deyilir ki, məhdudlaşdırıcı tədbirlərə "Chengdu Haiguang Integrated Circuit", "Chengdu Haiguang Microelectronics Technology", "Higon", "Sugon" və Usi şəhərindəki Szyannan Kompüter Texnologiyaları Universiteti məruz qalmışdır. Bu təşkilatların fəaliyyətinin ABŞ-ın dövlət təhlükəsizliyi və xarici siyasət maraqlarına zidd olduğu qeyd edilir. Sözügedən şirkətlərə mal və xidmətlər satmaq üçün ABŞ firmaları bundan sonra xüsusi icazə almalı olacaqlar.

"Qara siyahı"ya düşmüş təşkilatlar yüksək sürətli kompüter hesablamaları, mikroçip istehsalı, proqram təminatlarının hazırlanması ilə məşğuldur. ABŞ Ticarət Nazirliyinin məlumatına görə, "Sugon" şirkəti bir müddət əvvəl açıq etiraf etmişdir ki, Çin silahlı qüvvələri onun bir sıra məhsullarının əsas istehlakçılarındandır.

## Rusiyadan Gürcüstana təyyarə uçuşları dayandırıldı



Rusiya Prezidenti Vladimir Putin Rusiya aviasiya şirkətləri üçün Gürcüstana sərnişin daşımalarının müvəqqəti olaraq qadağan olunması barədə fərman imzalamışdır. Bu barədə Kremlin mətbuat xidməti məlumat vermişdir.

Bundan başqa, turizm şirkətlərinə qadağanın qüvvədə olduğu müddətdə Gürcüstana putyovka satmaqdan imtina etmək tövsiyə olunmuşdur. Putin həmin fərmanla hökumətə Gürcüstandakı rusiyalı turistlərin vətənə qayıtmasını təmin etməyi tapşırmışdır. Fərmanda deyilir ki, qadağa gələn ayın 8-də qüvvəyə minəcək və müvəqqəti xarakter daşıyacaq. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat vermişdir ki, təyyarə uçuşlarını bərpa etmək üçün "Gürcüstanda vəziyyət normallaşmalı və vətəndaşlarımızın təhlükəsizliyi üçün hər hansı təhdid aradan qalxmalıdır".

Qeyd edək ki, rəsmi Moskva bu addımı ötən cümə axşamı Rusiya nümayəndə heyətinin Gürcüstan parlamentində keçirilən tədbirə qatılmasına etiraz əlaməti olaraq Tbilisidə genişmiqyaslı nümayiş təşkil olunduqdan sonra atmışdır. Etiraz aksiyası iki gün davam etmişdir.

## Havayda təyyarə qəzasında 9 nəfər həlak oldu

İkimühərrikli "King Air" təyyarəsi ABŞ-ın Havay ştatının şimalında qəzaya uğramış, nəticədə 9 nəfər həlak olmuşdur. Bu barədə ştatın nəqliyyat departamenti məlumat vermişdir.

Yerli "Hawai News Now" portalı polisdəki mənbələrə istinadən xəbər verir ki, təcili yardım xidməti hadisə yerinə gələndə alov təyyarəni tamamilə bürümüşdü. Portal qeyd edir ki, hadisənin nə vaxt - təyyarə havaya qalxanda, yoxsa yerə enəndə baş verdiyi hələ məlum deyil.

## Kanada zooparkında fil nəzarətçini şikəst etdi

Kembric şəhərinin (Kanada, Ontario vilayəti) yaxınlığında zooparkın nəzarətçisi filin hücumu nəticəsində ciddi zədə almışdır. Bu barədə CTV telekanalı xəbər verir. Nəzarətçi helikopterlə xəstəxanaya çatdırılmışdır. Onun zədəsi ağırdır. Əmək Nazirliyinin əməkdaşları hadisənin səbəbini araşdırmaq üçün zooparka gəlmişlər.

Bu, sözügedən zooparkda fillərin insana ilk hücumu deyil. 1989-cu ildə heyvanların davasını dayandırmağa çalışan əməkdaş həlak olmuşdur. 1992-ci ildə iki fil nəzarətçilərdən birinə hücum edib onun ayağını qırmışdı.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9052
Sifariş 1988
Qiyməti 40 qəpik

